QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 222 (5942) **30 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Cənub Qaz Dəhlizi"- XXI əsrin layihəsi

## *Prezident İlham Əliyev: "Qlobal miqyaslı layihənin reallığa çevrilməsi Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü, iki ölkənin növbəti zəfəridir"*




Səh 4

6

**Azərbaycan parlamenti yeni Ombudsman seçdi**



5

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması**



5

**"YAP-ın təşəbbüsü Konstitusiyaya tam uyğundur"**



# "Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur"

## *Prezident İlham Əliyev İsrafil Məmmədovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İsrafil Məmmədovu yeni vəzifəyə - Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki,dedi:***

-Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Prezidentin köməkçisi vəzifəsinə təyin edilmişdir. Siz on ildən çoxdur ki, direktor müavini vəzifəsində işləyirsiniz, təcrübə toplamısınız. Mən qərara gəldim ki, sizi icraçı direktor vəzifəsinə təyin edim. Bu, böyük etimaddır. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Dövlət Neft Fondu bizim strateji aktivimizdir. Bu il biz Fondun yaradılmasının 20-ci ildönümünü qeyd edəcəyik. Əlamətdar hadisə ondan ibarətdir ki, "Çıraq" platformasından ilk neft çıxarılandan iki il sonra - 1999-cu ildə Azərbaycanda Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması ulu öndər Heydər Əliyevin tarixi qərarıdır. Bu gün bu qərar onu göstərir ki, nə qədər düzgün və vaxtında atılmış bir addım idi. Onu da bildirməliyəm ki, Neft Fondunun yaradılması ilə bağlı təklifi Ulu Öndərə mən vermişdim. O vaxt hökumətdə müxtəlif fikirlər var idi və hökumət üzvlərinin bəziləri bunun əleyhinə çıxmışdılar. Onların təklifi ondan ibarət idi ki, neftdən gələcək bütün gəlirlər büdcəyə daxil olsun və hər il xərclənsin. Əgər bu yanaşma seçilsəydi, bu gün Dövlət Neft Fondumuzda pul olmayacaqdı. Mən bu təklifin əleyhinə çıxdım. Sübut etməyə çalışırdım və buna nail oldum ki, məhz vəsaiti şəffaf şəkildə saxlamaq, ölkəmizin strateji istiqamətlərinə yönləndirmək və gələcək nəsillər üçün qoruyub saxlamaqdan ötrü mütləq Dövlət Neft Fondu yaradılmalıdır. Mənim təşəbbüsümlə Azərbaycan dövlət qurumlarının nümayəndələrindən ibarət heyət dünyanın müxtəlif ölkələrinə ezam edilmiş və orada oxşar fondların fəaliyyəti ilə tanış olmuşdur. Bundan sonra biz dünyada mövcud olan ən şəffaf və ən işlək model üzərində dayanıb onu qəbul etmişik və ötən 20 ilin təcrübəsi onu göstərir ki, bu, yeganə düzgün qərar idi. Deyə bilərəm ki, bu, tarixi qərar idi. Çünki Dövlət Neft Fondunun vəsaiti - orada toplanan, neftdən əldə edilmiş və hazırda artıq qazdan əldə edilmiş gəlirlər ölkəmizin ümumi inkişafını böyük dərəcədə şərtləndirir.

Biz ölkə qarşısında duran önəmli sosial layihələri icra edə bilmişik. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz Dövlət Neft Fondunun vasitəsilə icra edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənibdir. Hər il Dövlət Neft Fondundan büdcəyə edilmiş transfertlər hesabına biz sosial layihələri icra edə bilirik, bu, maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan yaradır. Eyni zamanda, ölkəmiz üçün strateji sayılan sahələri də Neft Fondu maliyyələşdirir. Onların arasında təhsillə bağlı olan layihələr var. Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil alması ilə bağlı təşəbbüs də Fond tərəfindən təmin edilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, digər önəmli strateji layihələr, qazma qurğularının tikintisi - bütün bunlar Dövlət Neft Fondunun vəsaiti hesabına icra edilib.

***"Biz ölkə qarşısında duran önəmli sosial layihələri icra edə bilmişik. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz Dövlət Neft Fondunun vasitəsilə icra edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənibdir. Hər il Dövlət Neft Fondundan büdcəyə edilmiş transfertlər hesabına biz sosial layihələri icra edə bilirik, bu, maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan yaradır"***

Bir sözlə, deyə bilərəm ki, bu gün Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur. Eyni zamanda, Fondumuzun beynəlxalq imici də çox müsbətdir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl Fond BMT-nin mükafatı ilə təltif edilmişdir. Onu da bildirməliyəm ki, mənim təşəbbüsümlə Azərbaycan o vaxt Böyük Britaniyanın Baş Naziri tərəfindən irəli sürülmüş təşəbbüsə qoşuldu. Təşəbbüsün adı Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü idi. Azərbaycan bu təşəbbüsə qoşulan və onun bütün meyarlarını təmin edən ilk ölkələrdən idi. Uzun illər biz bu təşkilat çərçivəsində fəaliyyət göstərmişdik. Ancaq görəndə ki, artıq bu təşkilat öz mahiyyətini itirir, burada siyasiləşmə prosesi gedir və Azərbaycana qarşı qeyri-obyektiv, qərəzli yanaşma tətbiq olunur, biz məsələ qaldırdıq ki, əgər buna son qoyulmasa, Azərbaycan bu təşkilatdan çıxacaqdır. O vaxt mən bunu bildirəndə, sözün düzü, təşkilatın rəhbərliyi buna o qədər də inanmadı. Yadımdadır, o vaxt mənim təşkilatın rəhbər işçiləri ilə görüşüm keçirilmişdir və mən açıq dedim ki, mənim sözümlə əməlim arasında fərq yoxdur. Əgər deyirəmsə, biz buradan çıxacağıq və belə də oldu. O qərarı biz qəbul etdik, o, asan qərar deyildi. Çünki biz bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri kimi, bu təşkilatın formalaşmasında da önəmli rol oynamışdıq. Ancaq həyat göstərdi ki, nə qədər düzgün addım atıldı. Bizdən bir qədər sonra Amerika Birləşmiş Ştatları da bu təşəbbüsdən çıxdı və beləliklə, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü adlandırılan qurum tamamilə nüfuzdan düşdü və bu gün onun adı heç yerdə çəkilmir. Bu təşkilatda üzvlüyümüz, əslində, bizim niyyətimizə o qədər də böyük təsir etmədi. Çünki şəffaflıq bizim şüurlu seçimimizdir və bu gün Dövlət Neft Fondu dünyadakı suveren fondlar arasında ən şəffaf, ən səmərəli işləyən fondlardan biridir. Mən yaxşı bilirəm ki, buna oxşar bəzi fondlar son vaxtlar böyük itkilərə məruz qalmışdır, çünki onlar çox riskli siyasət aparırdılar, daha çox pul qazanmaq əzmində idilər. Bizim isə yanaşmamız, - mən bunu həmişə demişdim, - konservativ olmalıdır, mühafizəkar olmalıdır. Bizim əsas vəzifəmiz vəsaiti qorumaqdır və vəsaiti riskli olmayan alətlərə yatırmaqdır. Biz indi artıq çoxşaxəli valyuta səbətini əldə etmişik və burada da valyuta məzənnəsinin dəyişkənliyi bizim vəsaitimizə təsir etmir. Biz qızıla böyük yatırım etmişik, daşınmaz əmlaka böyük yatırım etmişik, Fondun vəsaiti coğrafi baxımdan da çoxşaxəlidir. Yəni, biz özümüzü mümkün olan bütün risklərdən qoruduq. Ən önəmlisi ondan ibarətdir ki, 20 il ərzində biz vəsait itirmədik və Fondun vəsaitini ildən-ilə artırırıq. Hətta böhranlı, devalvasiyaya uğradığımız illərdə də Fondun vəsaiti azalmadı. Mən imkan vermədim. Biz xərcləri azaltdıq, böyük qənaət tədbirlərinə yol açdıq, strateji valyuta ehtiyatlarımızı qoruduq və onları artırdıq. Deyə bilərəm ki, bu, çox nadir hallarda baş verən hadisədir. Çünki o dövrdə, neftin qiymətinin kəskin - 4 dəfə düşməsi dövründə bütün suveren fondlar böyük pullar itirdi. Milyardlarla, on milyardlarla dollar itirildi. Biz isə itirmədik, ona görə ki, çox düşünülmüş siyasət aparırıq.

**Ardı Səh. 3**

# "Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur"

*Prezident İlham Əliyev İsrafil Məmmədovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib*

**Əvvəli-Səh-2**

Mən çox şadam ki, Fondun idarəetmədən əldə edilən gəlirləri artır. Bu, çox yaxşı göstəricidir. Bu il, - hələ il başa çatmayıb, - Dövlət Neft Fondunun gəlirləri 4 milyard dollardan çox artıbdır. Bunun 1,8 milyard dolları məhz idarəetmədən əldə edilmiş gəlirlərdir. Yəni, bu, böyük vəsaitdir. Fondun düzgün siyasəti və vəsaitin düzgün yerləşdirilməsi, bax, belə imkanlar yaradır. Əminəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artacaq. Hazırda bizim strateji valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Bu, rekorddur, tarixi göstəricidir. Bu, göstərici məhz ona görə önəmlidir ki, o, bizim ümumi daxili məhsulumuzdan da çoxdur. Belə hallar indi çox nadir ölkələrdə müşahidə olunur. Eyni zamanda, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və biz bu göstəriciyə görə dünyada doqquzuncu yerdəyik. Biz gələn ilin büdcəsində neftin qiymətini 55 dollar səviyyəsində nəzərdə tuturuq. Bu da çox mühafizəkar yanaşmadır. Hazırda "Azeri Light" neftinin qiyməti 70 dollara yaxınlaşır, biz 55 götürürük. Çünki daha çox pul yığılsın. Məsələn, biz 65 götürsək, onda bu pul transfer şəklində büdcəyə gələcək və xərclənəcək. Ehtiyac yoxdur. İndi biz şəffaflıq, dürüstlük, islahatlar nəticəsində büdcəmizi digər sahələr vasitəsilə təmin edirik. Vergi və gömrük orqanları on ay ərzində 850 milyon manat əlavə vəsait toplayıblar. İlin sonuna qədər vaxt var, bu, artacaq. Ona görə biz Neft Fondunun gəlirlərinə qənaət etməliyik. Yəni, bir sözlə, Azərbaycanda bir çox sahələrdə olduğu kimi, bu sahədə də çox düzgün yanaşma, düşünülmüş siyasət və xalqın maraqlarına uyğun atılan addımlar, bax, bu gözəl nəticəni əldə etməyə imkan verdi.

Mən Fondun fəaliyyətini yüksək qiymətləndirirəm. Məhz buna görə Fondun icraçı direktoru Şahmar Mövsümov mənim tərəfimdən Prezidentin köməkçisi vəzifəsinə təyin edilib. Əminəm ki, o, köməkçi kimi islahatların dərinləşdirilməsi istiqamətində önəmli rol oynayacaqdır.

Sizə isə tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu həm öz aktivlərini artırmalı, onları əmniyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan Neft Fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır. Artıq il başa çatır. Bu il əldə edilmiş nailiyyətlər və gələn il planlaşdırılan addımlar haqqında məlumat verin.

x x x

İsrafil Məmmədov: Möhtərəm cənab Prezident. İlk növbədə, göstərdiyiniz bu böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Siz dediyiniz kimi, bu il Azərbaycan Respublikasının Dövlət Neft Fondu Ulu Öndər tərəfindən yaradılmasının 20 illiyini qeyd edir. Qeyd etdiyiniz kimi, bu 20 il ərzində Dövlət Neft Fondu aktivlərin ildən-ilə artan, beynəlxalq səviyyədə nüfuzlu və şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir olan maliyyə qurumuna çevrilibdir.

Möhtərəm cənab Prezident, Sizin hər zaman verdiyiniz yüksək qiymət bizim üçün böyük şərəfdir. Biz - Dövlət Neft Fondunun kollektivi də həmişə Fondun Sizin qarşınızda götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində əlindən gələni əsirgəməyib. Təbiidir ki, bu nailiyyətlərin heç biri Sizin dəstəyiniz olmadan mümkün olmazdı. Fondumuzun bütün kollektivi də daim Sizin diqqətinizi hiss edib. Siz bütün işlərimizdə bizə dəstək olmusunuz.

Möhtərəm cənab Prezident, Sizi əmin edirəm ki, göstərdiyiniz bu böyük etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Çox minnətdaram, cənab Prezident.

Siz qeyd etdiyiniz kimi, bu il Fondun vəsaiti 10 faiz artıb və ilin axırına 42,5 milyard dollar həcmində gözlənilir. Qeyd etdiyiniz kimi, Fondun tarixində investisiya gəlirləri ilk dəfə olaraq 1,8 milyard dolları keçib. Bir daha Sizi əmin etmək istərdim ki, Fondun investisiya portfelinin daha da şaxələndirilməsi və risklərin azaldılması istiqamətində əlimdən gələni əsirgəməyəcəyəm.

x x x

Prezident İlham Əliyev: Çox yaxşı. Mən əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirirəm. O cümlədən bildirmək istəyirəm ki, mən Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində dünyanın aparıcı fondlarının rəhbərləri ilə görüşlər keçirmişəm və çox böyük məmnunluq hissi ilə deyə bilərəm ki, onların da Fondumuz haqqında fikirləri çox müsbətdir. Azərbaycan Dövlət Neft Fondu nəinki ölkə ərazisində önəmli layihələr icra edir, eyni zamanda, dünyanın aparıcı fondları ilə də, - o fondların vəsaiti yüz milyardlarla ölçülür, - əməkdaşlıq edir və onlarla birlikdə müxtəlif sərmayə layihələrində iştirak edir. Bu, Fondun, ilk növbədə, nə qədər səmərəli təşkilat olduğunu göstərir. Digər tərəfdən, dünyanın vəsaiti yüz milyardlarla ölçülən aparıcı fondları öz reputasiyalarına çox böyük həssaslıqla yanaşırlar və onlar üçün pul əsas deyil. Onlar üçün əsas reputasiya və şəffaflıqdır.

Bizim üstünlüyümüz ondadır ki, Fondumuz təkcə bir xəzinə kimi yox, doğrudan da önəmli beynəlxalq təşkilat kimi ölkəmizin imicinə çox müsbət təsir göstərir. Hesab edirəm ki, gələcəkdə dünyanın aparıcı maliyyə qurumları ilə bizim əməkdaşlığımız dərinləşməlidir. Fondun investisiya portfelinin şaxələndirilməsi istiqamətində indi aparılan işlər qənaətbəxşdir. Ancaq həyat yerində durmur, yeni alətlər meydana çıxır, yeni sərmayə yerləri maraq doğurur. Ona görə siz bu sahədə də çox çevik siyasət aparmalısınız. İndi dünyada iqtisadi inkişaf qeyri-bərabər şəkildə gedir. Bəzi ölkələrin iqtisadiyyatı daha böyük inkişafla artır. Ona görə biz çox çevik siyasət aparmaqla daha çox gəlir əldə etmək üçün ancaq azriskli aktivlərə fikir verməliyik. İndi Fondun komandası da çox təcrübəlidir, uzun illərdir ki, işləyir. Siz də on ildən çoxdur ki, müavin vəzifəsində işləyirsiniz. Əminəm ki, müsbət dinamika davam etdiriləcəkdir. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

İsrafil Məmmədov: Çox sağ olun, çox minnətdaram.

# Rəsmi xronika



Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiqi edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturu" təsdiq edilsin.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamənin layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi istisna olmaqla, Administrasiyanın digər struktur bölmələrinin ştat cədvəlini bir ay müddətində təsdiq etsin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

* * *

Prezident İlham Əliyev Anar Ələkbərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Anar Sahib oğlu Ələkbərov Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edilib.

* * *

Bundan əvvəlki Sərəncama əsasən, Anar Sahib oğlu Ələkbərov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev Natiq Əmirovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Fuad Ələsgərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Fuad Murtuz oğlu Ələsgərov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilsin.

* * *

Prezident İlham Əliyev Kərəm Həsənovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əli Həsənovun Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Əli Məhəmmədəli oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin ictimai siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilsin.

* * *

Prezident İlham Əliyev Şahmar Mövsümovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Şahmar Arif oğlu Mövsümov Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru vəzifəsindən azad edilsin.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Şahmar Mövsümov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri təyin edilib.

* * *

Prezident İlham Əliyev Eldar Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev İsrafil Məmmədov Dövlət Neft Fondunun İcraçı direktoru təyin edilməsi barədə sərəncam imzalayıb. Sərəncamda deyilir: "İsrafil Aydın oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru təyin edilsin".

* * *

Prezidentin digər Sərəncamı ilə İsrafil Məmmədov Dövlət Neft Fondunun müavini vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev Məhərrəm Əliyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilsin.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Məhərrəm Əliyev ədliyyə nazirinin müavini vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev M.A.Əliyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Fərəh Əliyevanın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şahin Əliyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri təyin edilsin.

* * *

Prezident İlham Əliyev Ədalət Vəliyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# “Cənub Qaz Dəhlizi”- XXI əsrin layihəsi

## *Prezident İlham Əliyev: “Qlobal miqyaslı layihənin reallığa çevrilməsi Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü, iki ölkənin növbəti zəfəridir”*






***Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan növbəti böyük uğurun - dəyəri 45 milyard dollara yaxın, uzunluğu 3 min 500 kilometr olan və 6 ölkədən keçməklə, Azərbaycanı Bakıdan İtaliya sahilləri ilə birləşdirən kəmər sistemi - “Cənub Qaz Dəhlizi” layihəsinin daha bir seqmenti - Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin - TANAP-ın ikinci hissəsi istifadəyə verilir. “Cənub Qaz Dəhlizi”nin bel sütunu olan layihənin keçiriləcək açılış mərasimində Xəzərin qazı TANAP ilə ilk dəfə Avropaya çatdırılacaq.***

### TANAP-ın tikintisinin başa çatması Azərbaycan, Türkiyə və Avropa üçün əlamətdar hadisədir

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral sözügedən məsələ ilə bağlı bildirib ki, bu gün Edirne vilayətinin İpsala rayonunda TANAP-ın ikinci hissəsinin açılışı olacaq: “Bu, onu ifadə edir ki, TANAP-ın tikintisi tamamilə bitir və Azərbaycan qazı Avropaya çatır. Biz hər zaman demişik ki, Azərbaycan TANAP və “Cənub Qaz Dəhlizi” sayəsində Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfə verəcək. Bu, artıq reallıqdır. Trans-Adriatik boru kəmərinin tikintisi başa çatdıqdan sonra Avropa artıq gələn il daha bir vacib alternativ qaz mənbəyi əldə edəcək”.

Qeyd edək ki, TANAP Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan “Cənub Qaz Dəhlizi”nin bir hissəsidir. İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

### Xəyallar gerçəkliyə çevrildi

Türkiyə mediası bu tarixi layihə ilə bağlı qardaş ölkənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz bildirib. Onun sözlərinə görə, TANAP “Türk axını” kəmərinin rəqibi sayılır: “TANAP ən vacib layihələrimizdən biridir. Kəməri noyabrın 30-da istifadəyə verməyi planlaşdırırıq ki, mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev iştirak edəcəklər”.

Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin reallaşmasını Prezident İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü, iki ölkənin növbəti zəfəri adlandırıb.

Səbəbi isə odur ki, bu layihə ilk dəfə gündəmə gələndə, bəzi dairələr buna xəyal deyirdilər. Antiazərbaycançı qüvvələr bunun həyata keçirilməsini qeyri-mümkün sayırdılar. Amma iki qardaş ölkə səbir etdi və dözüm göstərdi. Doğru yolda qətiyyətlə çalışılaraq, uğurlu nəticə əldə edildi.

Əskişəhərdə keçirilən təntənəli açılış mərasimində çıxış edən Prezident İlham Əliyev dedi ki, Azərbaycan Türkiyə ilə XXI əsrin enerji tarixini birlikdə yazır. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür: “TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. “Cənub Qaz Dəhlizi”nin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir... Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır”.

### TANAP - iki qardaş ölkənin ortaq baxışının ən son bəhrəsi

İqtisadçı-ekspertlər də hesab edirlər ki, TANAP təkcə enerji təhlükəsizliyi baxımından deyil, Xəzər bölgəsindən Avropaya qədər marşrut üzərindəki bütün ölkələrin rifahına və məşğulluq probleminə də töhfə verəcək.

TANAP-la 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə, 6 milyard kubmetr Azərbaycan təbii qazı Türkiyəyə nəql ediləcək. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində isə, bu həcm 6 milyard kubmetrə çatdırılacaq. TANAP Türkiyənin təbii qaza olan tələbatının 12 faizini ödəyəcək.

TANAP iki qardaş ölkənin ortaq baxışının ən uğurlu bəhrəsidir. Enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP, eyni zamanda, qarşıdakı illərdə birgə həyata keçiriləcək yeni layihələrin müjdəsidir.

### Qətiyyətli siyasətin uğurlu nəticəsi

Bax budur, qətiyyətli siyasəti uğurlu nəticəsi. Prinsipial və alternativsiz mövqeyi ilə tanınan Azərbacan Prezidenti İlham Əliyevin möhtəşəm uğurları. Noyabrın 30-da bütün Avropa bir daha Azərbaycan Prezidentinin uğurlu diplomatiyasına həsəd aparmaqla, bir daha şahid olacaqlar ki, bu ancaq və ancaq Azərbaycan rəhbərinin güclü uğurlu siyasəti nəticəsində gerçəkliyə çevrilə bilər və noyabrın 30-da Avropa bir daha şahidi olacaq!

***RƏFİQƏ KAMALQIZI***





## Azərbaycan Respublikası Prezidentinin Administrasıyasının açıqlaması

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yeni strukturu təsdiq olunub. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturun tərkibi yenidən formalaşdırılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Respublikası Prezidentinin yeni köməkçiləri və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdirləri təyin olunub.

Qarşıya qoyulan vəzifələrə uyğun olaraq, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamənin layihəsi bir ay müddətində hazırlanaraq Azərbaycan Respublikası Prezidentinə təqdim ediləcək.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yeni strukturu ilə bağlı müvafiq sənədlər Azərbaycan Respublikası Prezidentinin rəsmi saytında (www.president.az) yerləşdirilib.

## "Bu gün Azərbaycan demokratik inkişaf yolunu seçir və Heydər Əliyev yolu ilə gedir"

"1991-93-cü illərdə müstəqilliyimizin iki ili çox təəssüf ki, Azərbaycan tarixi üçün itirildi. Həmin dövrdə hazırlıqsız, Azərbaycanın problemlərini həll etmək üçün proqramı olmayan siyasi qruplar hakimiyyəti zəbt etdilər. Xüsusilə də AXC-Müsavat siyasi birliyi Azərbaycanın inkişafı və həmin dövr problemin həlli üçün çox böyük səhvlər buraxdılar". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.



Deputatın sözlərinə görə, bu səhvlər hazırlıqsızlıqdan, eyni zamanda siyasəti öyrənmək istəməməyindən, xalqdan aralı düşmələrindən irəli gəlirdi: "Onların siyasəti Azərbaycanı Ermənistanın işğalı qarşısında zəifləməsi, torpaqlarımızın itirilməsi, Silahlı Qüvvələrimizin vaxtında vahid komandanlıq altında yaradılmamasına gətirib çıxardı. Həmçinin Azərbaycanın demokratikləşməsi müsbət demokratik təcrübənin öyrənilməsi qarşısında da AXC-Müsavat birliyi böyük sədd çəkdilər. Həmin dövrdə onların əsas məqsədi Ulu Öndər Heydər Əliyevin böyük siyasətə qayıdışını istənilən yolla əngəlləməkdən ibarət idi. Ancaq bununla belə tarix öz sözünü dedi və onların üstlərindən qara bir xətt çəkdi. Heydər Əliyev hakimiyyətə gəlməklə Azərbaycan tarixində bir inkişaf, bir intibah dövrü başlandı. Bu gün vaxtilə hakimiyyətdə olan AXC-Müsavat nümayəndələri xalqı həmin dövrü unutdurmağa, özlərini demokratik bir qüvvə kimi qələmə verməyə çalışırdılar. Hesab edirəm ki, xalq onların səvlərini, buraxdığı nöqsanları ən əsası isə indiyədək də antimilli mövqedə durmaqlarını unutmayıb. Bu gün Azərbaycan demokratik inkişaf yolunu seçir və Heydər Əliyev yolu ilə gedir".

**Ceyhun Rasimoğlu**

# "YAP-ın təşəbbüsü Konstitusiyaya tam uyğundur"



***"Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması ilə bağlı təşəbbüsü Konstitusiyaya tam uyğundur: Müxalifətin bir az yaddaş problemi var. Yaddaş probleminə görə nə dediklərini bilmirlər. Elə Müsavat Partiyasının qərargahındakı sonuncu toplantılarında müzakirələrin yekunu olaraq qəbul etdikləri sənədin sonuncu bəndi elə növbədənkənar parlament seçkiləri ilə bağlı bənd olub. Yəni onlar düşünürdülər ki, bəyanat versələr, hakimiyyət həmin məsələdən uzaqlaşacaq, məhz onların bəyanatına görə keçirməyəcək. Onların bəyanatının bizə heç bir aidiyyəti yoxdur". SİA-nın xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.***

O bildirib ki, nə Şərqin, nə Qərbin, Avropanın, nə də hansısa Avropa strukturunun növbədənkənar parlament seçkilərinə heç bir aidiyyəti yoxdur: "Azərbaycan müstəqil siyasət yeridir və hər hansı bloka qoşulmur. O baxımdan Azərbaycan dövləti öz siyasətini xalqının tələbinə uyğun olaraq qurur. Dünyada praktika belədir ki, müxalifət növbədənkənar seçkiləri önəmli sayır. Siyasi partiyanın işi seçkiyə hazırlaşmaq və orada iştirak etməkdir. Əgər onlar seçkiyə hazır deyillərsə və hazırlaşmayıblarsa, onda fəaliyyətləri nədən ibarətdir? Dəfələrlə şahidi olmuşuq ki, Prezident seçkiləri zamanı namizəd tapa bilmirlər. Namizədliyin irəli sürülməsi prosesi yekunlaşmaq üzrə olanda onlar ya Rusiya vətəndaşı olan Rüstəm İbrahimbəyovu, ya da Cəmil Həsənlini haradansa tapıb gətiriblər. Ona görə də seçkilərdə ən vacib məsələ zamandır".

YAP tərəfindən deputatların 5 illik fəaliyyəti ilə bağlı statistik təhlilinin aparıldığını deyən hakim partiyanın İcra katibinin müavini söyləyib ki, buna uyğun olaraq da hər ay hesabat hazırlanaraq partiyada müzakirə olunur: "Növbəti seçkilərdə onların təhlil müddətindəki fəaliyyətləri nəzərə alınacaq". S.Novruzov eyni zamanda mətbuatda və sosial şəbəkələrdə növbəti seçkilərdə kimlərin olması ilə bağlı dərc olunan siyahıya da münasibət bildirib. O qeyd edib ki, siyahı havadan götürülmüş siyahıdır: "Hər seçkiöncəsi belə siyahılar dərc olunur. Tərkibin dəyişməsi də məhz seçicilərdən asılıdır".

**Nailə Məhərrəmova**

# Leyla Abdullayeva: "Paşinyan anlamalıdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur"

Ermənistanın baş naziri N.Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Bişkekdə keçirilən iclası zamanı səsləndirdiyi fikirlər onun növbəti dəfə yalan və militarist ritorikadan çıxış etdiyini bariz şəkildə göstərir. Əslində bu kimi ritorika ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqları pozan elə N.Paşinyanın özüdür. Cari ilin avqust ayında Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində səsləndirdiyi "Dağlıq Qarabağ Ermənistandır." fikri danışıqlar prosesinə çox ciddi zərbə vurmuşdur. Əgər N.Paşinyan bu fikrini dəyişibsə o, bunu açıq şəkildə bildirməlidir, yox əgər baş nazir bu fikrində hələ də qalırsa, bu, danışıqlar prosesinə, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə və mandatına ciddi zərbədir.

AZƏRTAC xəbər verir ki, bu fikri Ermənistan baş nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Bişkekdə keçirilən görüşündə çıxışını şərh edən Azərbaycanın Xarici İşlər Nazirinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

Leyla Abdullayeva deyib: "Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca müxtəlif təxribatlar törədən, mülki əhalini atəşə tutan, o cümlədən bu il oktyabrın 3-də azərbaycanlı ekskavatorçunu qətlə yetirən Ermənistan tərəfi bu kimi təxribatçı vasitələrlə KTMT-ni münaqişəyə cəlb etmək istəyir. KTMT üzv dövlətləri ilə Azərbaycan arasında, hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq da daxil olmaqla sıx əməkdaşlığı münasibətləri mövcuddur. Xüsusilə Rusiya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığı qeyd etmək istərdik.



Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə geniş əməkdaşlıq vardır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 30-da Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunu, noyabrın 26-da isə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovu qəbul edib və hər iki görüşdə 2020-ci ildə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub. Ehtiyac olarsa, Azərbaycan Rusiyadan yeni silahlar ala bilər. Vurğulamaq istərdik ki, bu məsələnin Ermənistan baş nazirinə hər hansı aidiyyəti yoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçılarının Şurasının Aşqabad şəhərində keçirilən iclasında Ermənistanda faşizmin qəhrəmanlaşdırılması, Njde Qaregin adlı faşist cəlladına abidənin ucaldılması barəsində konkret sənədlərə və dəlilərə istinad edərək çıxış etdi. Bu çıxışa cavab verməyə cəhd göstərən Ermənistan baş naziri Paşinyanın gülünc və cəfəng fikirləri Prezident İlham Əliyev tərəfindən cavab çıxışı ilə böyük ustalıqla darmadağın edildi. İndi Ermənistan hökumətinin başçısının bu fikirləri hətta Ermənistanın özündə gülüş və məsxərə obyektinə çevrilib. Baş nazir Paşinyanın SSRİ xarici işlər naziri V.Molotovun da Hitler ilə görüşdüyünü qeyd etməsi, həmçinin Njde Qaregini A.Soljenitse ilə eyniləşdirməsi tarixi savadsızlıq və sinizmin nümunəsidir. Ermənistan baş naziri anlamalıdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur".

## Moskvada Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının səkkizinci iclası keçirilib

Noyabrın 27-29-da Moskvada Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının səkkizinci iclası keçirilib. Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası prosesinin davam etdirilməsi ilə bağlı məsələlər müzakirə edilib, Komissiyanın 2020-ci il üçün iş planı təsdiq edilib və iclasın protokolu imzalanıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının mətbuat üçün bəyanatında deyilir. Bildirilib ki, görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda keçirilib. Birgə Komissiyanın növbəti iclasının Azərbaycan Respublikasının ərazisində keçirilməsi nəzərdə tutulur. İclasın keçirilmə tarixləri diplomatik kanallarla razılaşdırılacaq.

# Azərbaycan parlamenti yeni Ombudsman seçdi

## *Səsvermə nəticəsində Ombudsman seçilən Səbinə Əliyeva Milli Məclisdə and içdi*



***Dünən Milli Məclisin plenar iclasında Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə namizədlik məsələsi müzakirəyə çıxarılıb.***

Məsələ müzakirə edildikdən sonra səsverməyə qoyulub. Səsvermə nəticəsində Səbinə Yaşar qızı Əliyeva səs çoxluğu ilə Azərbaycanın yeni İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilib. İclasda iştirak edən deputatlardan 104 nəfəri onun Ombudsman olmasının lehinə səs verib.

Səbinə Əliyeva andiçmə mərasimi zamanı ölkə başçısı İlham Əliyev Cənablarına minnətdarlığını bildirib: "Bu vəzifəyə seçilmək mənim üçün böyük şərəfdir. Mənə etimad göstərib, bu vəzifəyə namizədliyimi Milli Məclisə təqdim etdiyinə görə, Prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm".

O, parlament üzvlərinə də onu yeni Ombudsman seçdiklərinə görə təşəkkürünü çatdırıb: "Sizi əmin etmək istərdim ki, ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu və Azərbaycan Prezidenti Cənab İlham Əliyevin daha da təkmilləşdirdiyi insan hüquqlarının təmin edilməsi sisteminə töhfə verilməsi, bununla da, cəmiyyətimizdə gedən hərtərəfli inkişaf prosesinin dəstəklənməsi üçün səylərimi əsirgəməyəcəm. Vətəndaşların, əhalinin müxtəlif qruplarının, o cümlədən, yetkinlik yaşına çatmayan insanların bütün azadlıqlarının səmərəli qaydada təmin edilməsi İnsan Hüquqları üzrə Müvəkkilin işinin prioritet istiqaməti olacaq.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, hüquqları pozulmuş vətəndaşlarımızın müdafiəsi, işğal nəticəsində, tarixi və mədəni sərvətlərinin dağıdılması faktlarının dünya ictimaiyyətinin diqqətinə çatdırılması, bu işin mühüm tərkib hissələrindəndir".

### Yeni Ombudsman kimdir?

Ombudsmanlığa namizəd 1980-ci il təvəllüdlü Əliyeva Səbinə Yaşar qızı 3-cü dərəcəli Dövlət müşaviridir. İxtisasca hüquqşünas olan S.Əliyeva, eyni zamanda, hüquq üzrə fəlsəfə doktorudur. O, 2013-cü ildə Prezident İlham Əliyev tərəfindən "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub. S.Əliyeva millət vəkili Siyavuş Novruzovun həyat yoldaşıdır.

Qeyd edək ki, bu vəzifəyə Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilən sənəddə 3 nəfərin namizədliyi irəli sürülmüşdü. Namizədlər Bakı Apellyasiya Məhkəməsinin sədr müavini Kəmalə Abiyeva, Ali Məhkəmənin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Kəmalə Əliyeva və Konstitusiya Məhkəməsi Aparat rəhbərinin müavini Səbinə Əliyeva idi.

Xatırladaq ki, hazırda Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova 2002-ci ildən Ombudsmandır.

***RƏFİQƏ HÜSEYNOVA***




# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Noyabrın 29-da Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Oqtay Əsədov gündəlik barədə məlumat verib. Bildirilib ki, gündəlikdə 22 məsələ var. Bunlardan ilk 11 məsələ 2020-ci ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin üçüncü oxunuşudur.***

Gündəlik təsdiqləndikdən sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə (üçüncü oxunuş) məlumat verib. Bildirib ki, gələn ilin büdcə zərfinə daxil olan sənədlər Milli Məclisin komitələrində ətraflı müzakirə edilib. Deputatlar ölkə iqtisadiyyatının daha davamlı və keyfiyyətli inkişafına xidmət edən kifayət qədər maraqlı və səmərəli təkliflər irəli sürüblər. Azərbaycan hökumətinin müvafiq strukturları, əlaqədar nazirliklər deputatların təklifləri ilə bağlı xeyli işlər görüblər.

Məlumat dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli gündəlikdəki növbəti 2 qanun layihəsini təqdim edib. Bildirib ki, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri geniş müzakirə olunub və razılıqla qarşılanıb.

"İşsizlikdən sığorta fondunun 2020-ci il dövlət büdcəsi haqqında" və "Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında" qanun layihələrinin üçüncü oxunuşu barədə isə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib. Məlumat dinlənildikdən sonra 4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda bildirilib ki, "Əmək pensiyaları haqqında" Qanunun 6-1-ci və 14.4-cü maddələrinə edilən dəyişiklik vətəndaşların sosial durumunun yaxşılaşdırılmasına xidmət edir. Layihə üçüncü oxunuşda təsdiqlənib. "Məşğulluq haqqında" Qanunda edilən dəyişiklik də üçüncü oxunuşda məqbul sayılıb. "Sosial müavinətlər haqqında" Qanunda ailənin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədi daşıyan dəyişiklik (üçüncü oxunuş) razılıqla qarşılanıb. Parlament Vergi Məcəlləsində edilən dəyişikliklərə də (üçüncü oxunuş) müsbət münasibət bildirib.

Deputatlar Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2020-ci il üçün xərclər smetası haqqında qanun layihələrini də təsdiqləyiblər.

Gündəlikdəki növbəti məsələ - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) seçilməsi haqqında parlament Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova məlumat verib. Bildirib ki, 2019-cu il 15 noyabr tarixdə Azərbaycan Prezidentinin imzası ilə parlamentə məktub daxil olub. Məktubda dövlətimizin başçısı insan hüquqları üzrə müvəkkilin seçilməsi üzrə namizədlərini təqdim edib. İnsan hüquqları komitəsinin sədri diqqətə çatdırıb ki, komitə ombudsmanlığa təklif edilən şəxslərin namizədliyinə baxıb və bunu parlamentin plenar iclasına təqdim edib. Namizədlər cəmiyyətdə tanınan insanlardır və onların hər biri şəxsi keyfiyyətlərinə görə bu vəzifəni tuta bilər.

Səbinə Əliyevanın, Kəmalə Əliyevanın və Kəmalə Abıyevanın namizədliyi ayrı-ayrılıqda səsə qoyulub. Səbinə Əliyeva səs çoxluğu ilə İnsan hüquqları üzrə müvəkkil (ombudsman) vəzifəsinə seçilib.

Sonra yeni seçilmiş ombudsman Səbinə Əliyeva vəzifəsinin icrasına başlamaqla əlaqədar deputatlar qarşısında and içib, Prezident İlham Əliyevə və deputatlara ona göstərilən etimada görə təşəkkürünü bildirib.

Daha sonra plenar iclasda məhkəmə-hüquq sistemində islahatlarla bağlı parlamentə bir zərfdə daxil olmuş 9 qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi başlanıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, təqdim olunan qanun layihələrindəki dəyişikliklər iki əsas mahiyyət daşıyır: birincisi, vahid məhkəmə təcrübəsinin yaranması; ikincisi, dövlət ekspertizası ilə yanaşı, özəl ekspertizanın da olması. Komitə sədri ikinci oxunuşdan sonra layihədə aparılmış dəyişikliklərdən bəhs edib. Vurğulayıb ki, vahid məhkəmə təcrübəsinin yaranması "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Prezidentin Fərmanında verilmiş tövsiyənin ən vacib elementidir. Məqsəd bu sistemdə mövcud olan problemlərin həllidir.

Məlumat dinlənildikdən sonra "Məhkəmələr və hakimlər haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "İnzibati icraat haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda və 4 Məcəllədə - Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib. İclasda "Tibbi sığorta haqqında" Qanuna dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələ də müzakirə edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, gələn ildən etibarən ölkəmizdə icbari tibbi sığortaya keçidlə bağlı "Tibbi sığorta haqqında" Qanunun 8 maddəsinə 126 dəyişiklik təklif olunur. İcbari tibbi sığorta Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial islahatların ən vacib komponentlərindən biridir, çox böyük bir sosial proqramdır. Komitə sədri qanun layihəsinin birinci oxunuşda müzakirəsindən sonra layihəyə edilmiş dəyişiklikləri diqqətə çatdırıb.

Sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

# Dekabrın 5-də ölkəmizdə 650 min ağac əkiləcək

Dekabrın 5-də "Nəsimi ili" ilə əlaqədar Azərbaycanda 650 min ağacın əkilməsi kampaniyası gerçəkləşəcək. Bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü çərçivəsində ölkəmizin bütün regionlarında eyni anda ağac əkilməsinə start veriləcək. "Təbiətə öz töhfəni ver" devizi altında keçiriləcək kampaniya çərçivəsində ölkəmizdə bu vaxta qədər baş verməmiş hadisə reallaşacaq, bir gündə 650 min ağac əkiləcək", - deyə nazirliyin rəsmisi bildirib.



# Rasim Quliyev: “Azərbaycanda konstruktiv, güclü müxalifətə ehtiyac var”

*“Çox təəssüf edirəm ki, ölkəmizdə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, xalqın milli maraqlarının təmin olunmasına xidmət göstərən siyasi müxalif partiya yoxdur. Sadəcə, müxalif siyasi qruplar mövcuddur və bu baxımdan onlar siyasi qüvvə hesab oluna bilməzlər. Dəfələrlə qeyd etdiyim kimi bu qruplar daha çox xalqımızın güzəranının, həyat şəraitinin yaxşılaşmasını, Azərbaycan dövlətinin, ümumilikdə Türk dünyasının güclənməsini istəməyən və yaxud Azərbaycan dövlətinin qüdrətinin artmasına əngəl olmağa çalışan və maddi, mənəvi dəstək aldıqları xarici maraqlı dairələrin göstərişlərinə uyğun fəaliyyət yolu tutan qruplardır”.*



SİA-nın verdiyi məlumata görə, bunu “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı yubiley mərasimində radikal müxalifət barəsində söylədiyi fikirlərə münasibət bildirərkən deyib.

R.Quliyev bildirib ki, xarici antimilli dairələrin xalqımıza və iqtidara qarşı istifadə etmək istədiyi ələbaxım siyasi qrupların olduğu bir faktdır: “Bu gün bu qruplar əgər Azərbaycanda baş verən hər hansı bir siyasi prosesi - siyasi, hüquqi, dövlət quruculuğu və yaxud iqtisadi bir prosesi Azərbaycan xalqının mənafeyi baxımından istər mənfi, istərsə də müsbət təhlil etmək və çıxarlarını götür-qoy etmək əvəzinə xariclə əlaqələndirmək düşüncəsindədirsə və bunu çəkinmədən bəyan edirsə, bu, həmin qurupların özlərinin dücüncəsinin və işinin mahiyyətinin göstəricisidir. Həmin qüvvələr özləri bir mərkəz kimi fəaliyyət göstərmək imkanında olmadıqlarından və fəaliyyətləri daha çox xarici qüvvələrlə əlaqəli olduğu üçün onların məhz düşüncəsi, baxış bucağı bundan kənara çıxa bilmir. İstənilən prosesi yalnız xarici amillərlə əlaqələndirməyə çalışırlar. Ancaq bizim dövlətimizin bu gün güclənməsində, möhkəmlənməsində, xalqımızın inkişafında iqtidarla rəqabət apara biləcək konstruktiv, güclü müxalifətə ehtiyac var. Çox təəssüflər olsun ki, bugünkü poseslərdə biz bunu görmürük. Aparılan islahatlar prosessində əgər real, konstruktiv, milli və dövlətçilik maraqlarından çıxış etməyi bacaran, xalqımızın bütün sahələr üzrə inkişafını şərtləndirən, stimullaşdıran bir siyasi rəqabət olsa idi, bu dövlətimizə və millətimizə xeyir verərdi. Ancaq xarici maraqlı dairələrlə iş birliyi quran, hər şeyi xariclə əlaqələndirən, bütün səbəbləri xaricdə axtaran bir siyasi qrupun mövcudluğu və o siyasi qruplardan dövlətimizə qarşı istifadə olunma cəhdləri çox təəssüf ki, Azərbaycan reallığıdır və aparılan islahatlara, milli mənafeyimizə əks istifadə üçün əsas götürülən bir arqumentlərə rəvac verir. Vaxtından əvvəl keçirilən prezident seçkiləri, həm ondan sonrakı dövrdə atılan addımlar istər hüquqi dövlət quruculuğu, istərsə də sosial, iqtisadi sahədə aparılan islahatlar bir daha təsdiqləyir ki, Azərbaycan iqtidarının bu yöndə apardığı siyasət qəti və dönməzdir”.

Siyasi ekspert vurğulayıb ki, Azərbaycan iqtidarı yeni dövrün, yeni siyasi mühitin və yeni dünyanın tələblərini nəinki özünə uyğunlaşdırmır, əksinə yeni mühitdə bir avanqard, aparıcı, lokomativ rolunu oynayır: “Bu gün bütün dünyada proseslər gedir. Mən dəfələrlə qeyd etmişəm ki, bizimlə qonşu olan dövlətlərdə iqtisadi sahədə müəyyən böhranlar var. Ancaq Azərbaycanda inkişaf edən həyat mövcuddur. Söz yox ki, fərqli mühitin yaranması iqtidarın apardığı düzgün, praqmatik siyasətlə bağlıdır. Bu gün İranda baş verən proseslər ölkə daxilində vaxtında aparılmayan islahatların mənfi nəticəsidir. İstənilən halda xarici təsirlərin baş verməsi üçün ölkədə münbit şərait olmalıdır. O münbit şəraiti yaratmamaq, yaxud xalqa daha yaxşı şəraiti yaratmaq iqtidarın apardığı islahatlarla birbaşa əlaqədardır. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar Azərbaycanı dünya öncülləri sırasına çıxarmaq yönündəki islahatların tərkib hissəsi hesab edirəm və əhali tərəfindən alqışla qarşılanan bu islahatların müsbət nəticələrinin ən qısa vaxt ərzində daha geniş formada özünü göstərəcəyinə şübhə etmirəm”.

# Naqif Həmzəyev: YAP-ın qərarı yenilənmiş Parlamentin formalaşmasına hesablanıb



Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası yenə də Azərbaycanın müstəqillik tarixində ilkə imza atdı.

Yeni Azərbaycan Partiyası 27 il ərzində üzərinə götürdüyü böyük missiyanı, tarixi ənənələrə və müasir dünyanın təcrübəsinə əsaslanan milli dövlətin qurulması kimi mühüm vəzifələri uğurla, layiqincə yerinə yetirib.

Taleyüklü məsələlərin həllinə baxışlarda praqmatizm nümayiş etdirən YAP ölkənin gələcək inkişafı ilə bağlı konseptual baxışlarını dünya təcrübəsi ilə zənginləşdirərək hər zaman sosial dövlət ideyalarını təbliğ edib. Xarici siyasətdə qloballaşan dünyanın reallıqlarını nəzərə alan, demokratiyanı ilk növbədə hüquqi dövlət modelinin əsası kimi qəbul edən Yeni Azərbaycan Partiyası problemlərdən çıxış yolları göstərib, ən mürəkkəb məsələlərlə bağlı konkret təkliflərlə, yeni ideyalar çıxış edib. Müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfələrini əsirgəməyən partiya bələdiyyə, parlament seçkilərində qələbə çalaraq həm yerli özünüidarəetmə orqanlarında, həm də qanunvericilik orqanında daha çox təmsil olunan partiya kimi daim uğurlara imza atıb. Keçdiyi tarixi yol Yeni Azərbaycan Partiyasını güclü siyasi təşkilata, qələbələr, uğurlar partiyasına çevirib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının noyabrın 28-də keçirilən iclasında Azərbaycan parlamentində islahatların aparılması ilə əlaqədar məsələ müzakirə olunub, növbədənkənar seçkilərə getməyə qərar verilib. Milli Məclisdə 72 mandatla mütləq çoxluğu təşkil edən hakim partiya ölkə Prezidenti İlham Əliyevə müraciət edərək parlamentin buraxılmasını xahiş edib. Parlamentin buraxılması ilə bağlı qərar Milli Məclisin dövlət Başçısının hazırda həyata keçirdiyi siyasətə adekvat olmaması və son aylar ölkədə aparılan islahatlardan geri qalması ilə əsaslandırılıb.

YAP sədrinin müavini, icra katibi Əli Əhmədov verilən qərarın ölkənin inkişafına təkan verməklə yanaşı Yeni Azərbaycan Partiyasının çoxluq təşkil etdiyi qanunverici orqanın yenilənməsinin zəruri olduğunu qeyd edib.

Milli Məclisin buraxılması ilə bağlı YAP-ın qərarı ilk olduğu üçün ölkə gündəminin əsas mövzusuna çevrilib. YAP sədrinin müavini, icra katibi Əli Əhmədovun vurğuladığı kimi Azərbaycanda parlamentin buraxılmasına qeyri-adi yanaşmaq lazım deyil. Azərbaycan parlamenti tarixində yeni ənənənin başlanğıcını qoyan qərar müstəqil ölkəmizin inkişafı üçün yeni imkanlar əldə edilməsinə, Prezident İlham Əliyevin müəllifi olduğu islahatlar kursunun ölkəmizin qanunverici orqanında da dərinləşməsinə və günümüzün çağırışlarına uyğun olaraq yenilənmiş Parlamentin formalaşmasına hesablanıb.

# Vyanada görkəmli rəssam Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgi açılıb



Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli fırça ustası Səttar Bəhlulzadənin 110 illik yubileyi münasibətilə onun əsərlərindən ibarət sərginin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova çıxış edərək görkəmli rəssamın həyat və yaradıcılığı haqqında məlumat verib. Qeyd edilib ki, Səttar Bəhlulzadə fenomeni olmadan 20-ci əsr Azərbaycan rəngkarlığını təsəvvür etmək mümkün deyil. Zəngin rəng çalarlarına malik əsərləri ilə S.Bəhlulzadə dünyaca məşhur impressionistlərlə bir cərgədə dayanır və Azərbaycanda impressionizm cərəyanının mübaliğəsiz ən güclü nümayəndəsi hesab olunur.

Bildirilib ki, daim vətəni ilə bağlı olan rəssam öz əsərlərində Azərbaycanın tarixini, təbiətini və füsunkar mənzərələrini canlandırıb. İkinci dünya müharibəsindən sonra yaradıcılığının inkişaf mərhələsinə qədəm qoyan S.Bəhlulzadənin diqqət mərkəzində tarixi mövzular, Azərbaycan təbiətinin inciləri, xüsusilə Abşeron yarımadası, Bakı kəndləri, neft buruqları və peyzajları dayanırdı. Mənzərə-peyzaj və natürmort janrlarına getdikcə daha çox maraq göstərən rəssam Azərbaycanın füsunkar təbiətini incə xalça naxışlarının düzülüşünə bənzər motivlərlə kətana köçürüb.

Sonra Səttar Bəhlulzadənin həyat və yaradıcılığına həsr olunmuş sənədli film nümayiş olunub. Alman dilində səsləndirilən filmdə rəssamın yaradıcılığına nəzər salınıb, onun müasirləri olmuş görkəmli şəxsiyyətlərin (Toğrul Nərimanbəyov, Arif Məlikov, Tahir Salahov, Ömər Eldarov) fikirləri yer alıb. S.Bəhlulzadənin əks olunduğu orijinal kadrlar tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Sərgi gələn il yanvarın 14-dək incəsənətsevərlər üçün açıq qalacaq.

# AŞPA Bürosunun və Daimi Komitəsinin iclaslarında Azərbaycanda həyata keçirilən islahatlar haqqında məlumat verilib

***Strasburqda Avropa Şurası Parlament Assambleyası (AŞPA) Bürosunun və Daimi Komitəsinin iclasları keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iclaslarda iştirak edib.***

Büronun və Daimi Komitənin iclaslarında Səməd Seyidov Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Yeni Azərbaycan Partiyasının qəbul etdiyi son qərar haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşdırılan islahatlar geniş və əhatəlidir. İcra və məhkəmə hakimiyyətləri sahələrində ciddi islahatlar uğurla həyata keçirilib. Qanunverici hakimiyyət belə islahatlardan kənarda qala bilməz. Bu sahədə də islahatlara ehtiyac var. İslahatlar strategiyası sistemli olması üçün bütün hakimiyyət qollarını əhatə etməlidir. Məhz buna görə də Yeni Azərbaycan Partiyası qanunverici hakimiyyətin islahatlardan kənarda qalmaması üçün belə bir qərar qəbul edib. Qanunverici sistemdəki islahatlar ölkədə həyata keçirilən ümumi islahatların məntiqi nəticəsidir. AŞPA-nın üzvləri bu islahatların həyata keçirilməsində ölkəmizə dəstək verməyə hazır olduqlarını bildiriblər.

# 95 yaşlı Britaniya kraliçası taxtını 71 yaşlı oğluna təhvil verəcək

Böyük Britaniya kraliçası II Elizabet taxtını oğlu şahzadə Çarlza təhvil verəcək. “Daily Mail” və “The Sun” qəzetlərinin verdiyi məlumata görə, 67 il ölkəyə rəhbərlik edən kraliça 18 aydan sonra hakimiyyəti böyük oğlu, 71 yaşlı Uels şahzadəsi Çarlza təhvil verəcək. Uzun müddətdir taxtda olan kraliçası II Elizabetin 95 yaşında təqaüdə çıxacağı bildirilib. Qeyd edək ki, kraliçası II Elizabet 1952-ci il fevralın 6-da 25 yaşında hakimiyyətə gəlib.

# Aslan İsmayılov və oğlu erməni casusun “qolları arasında” - FAKTLAR



### DTX-nı hərəkətə keçirəcək şok

Son günlər özünü hüquq müdafiəçisi adlandıran Aslan İsmayılovun TV-lərə ayaq açmasından sonrakı hərəkətləri insanlar arasında birmənalı qarşılanmayıb. Sanki qulağı səsə dəyib, olub-keçmişləri özünün “müdrik” uzaqgörənliyi kimi yozub onu tanımayanlara ağıllı görünməyə çalışır. Amma...

### Bu “əmma” barədə bir az sonra...

İndi görən facebook “aslanı” nələrdən danışır, kimin “saqqızını oğurlamağa” çalışır. “Hüquqşünas” yazır: “Dünən növbədənkənar Parlament keçiriləcəyi ilə bağlı yazıma olan şərhləri oxuduqca dəhşətə gəldim və bir daha əmin oldum ki, mövcud vəziyyətimizin günahkarı birinci növbədə özümüzük.... Və s. və ilaxır.

Əlavə edir ki, bu gün İlham Əliyev komandasını Merkel, Makron komandası ilə əvəzləsək də bizim bu düşüncəmizlə, passivliyimizlə onlar da 5-6 aydan sonra eyni kimi davranacaq. ABŞ, Avropada çalışan amerikanlı, avropalı iş adamının vəzifəli şəxslərə rüşvət vermək fikrindən belə keçmir. Azərbaycanda çalışan elə həmin iş adamları isə az müddətə kimin necə, nə qədər rüşvət aldığını öyrənir və məmnuniyyətlə rüşvətini verib işini aşırdır. Ən azından ABŞ-ın bir neçə keçmiş səfirlərinin bu gün Azərbaycandakı biznes fəaliyyətləri bunun bariz nümunəsidir. Rusların çox gözəl bir deyimi var: “hər bir şəxsin xoşbəxtliyi onun öz əlindədir”. Eləcə də hər bir xalqın xoşbəxtliyi ancaq onun özündən, çalışmasından asılıdır”.

Xalqı seçkilərdə aktiv iştirak etməyə və ən əsası özünün “ağıllı” təklifləri ilə bu ümumxalq səsverməsində iştirak etməyə dəvət edir.




Çox güman ki, “aslant” burada da özünə xal toplamağa çalışır.

İndi isə gələk yuxarıdakı “əmma”ya. Yaxud bir az yaxın tarixi qurdalayıb Aslan İsmayılov və oğlunun ermənilərlə nə qədər yaxın olduqlarını açığa çıxara bilərik. Daha doğrusu aznews.az xəbər portalının Baş redaktoru Taleh Şahsuvarlının bir neçə ay bundan əvvəl yazdığı məqaləni “hüquqşünas”ın diqqətinə çatdırmaq istəyirik ki, özünü çox da “oda-közə” vurmasın, yanmaq ehtimalı çox böyükdür...

### Aslan İsmayılov və oğlu Ziyəddinin Erməni Tələbələr Assosiasiyasının lideri olmuş Kristina Puşua ilə əməkdaşlığının pərdəarxası

Bir neçə saniyə diqqətinizi yuxarıdakı fotoya cəmləyin və şəkildəki xanımcığaza diqqətlə baxın. Çoxmu gözəldir? Əgər bu suala cavabınız müsbətdirsə, o zaman heç tələsməyin, mən sizə onun lap yaxşı vaxtlarına aid, necə deyərlər, əntiqə şəkillər də təqdim edəcəm. Xanımcığaz Kristina Puşaudur. Bu ad sizə heç nə demir? Tanımırsınız? Vallah, doğrusu, heç mən də tanımırdım dünənə qədər. Ta o dəqiqəyə qədər ki, keçmiş vəkil, Aslan İsmayılov kod adı ilə Azərbaycanda ictimai narazılığı körükləyəcəyini açıq şəkildə hər kəsə vəd etmiş məşhur avantürist öz “Facebook” səhifəsində onun haqqında danışanadək! Aslan İsmayılov bildirmişdi ki, Gürcüstandan Ukraynaya iki soydaşımız səfər edib, orada Mixail Saakaşvilinin evində qonaq olub:

“Gürcüstanda fəaliyyət göstərən “Yeni Liderlər Təşəbbüsü” layihəsi 5 sessiyadan ibarət olaraq təxminən 1 ay davam edib. Təlimlərdə 600-yə yaxın iştirakçı, 5000-dən çox müraciət edən olub. Təlimlər və Saakaşvili ilə görüş Yeni Liderlər Təşəbbüsü qeyri-hökumət təşkilatının direktoru Kristina Puşau tərəfindən təşkil olunub. Təşkilatın azərbaycanlılar üzrə koordinatoru, həmçinin təlimlərdə mühazirə söyləyən Ziyəddin İsmayılovdur”.

https://24news.ge/read/id/9417?fbclid=IwAR0pZeornHMIZcEuCmez-6AHl6HC4b0rChj7B1GTnVP2bdL50C28Tj72pSR8

Ziyəddin Aslan İsmayılovun oğludur və ilk baxışda belə bir paylaşım öz övladının vətəndaş cəmiyyətinin inkişafında səmərəli rol oynamasından iftixar hissi keçirən atanın öz duyğularını izləyiciləri ilə bölüşməsi təəssüratı oyadır. Amma bu təəssürat Aslan İsmayılovu tanımayan, onun mahiyyətinə bələd olmayan sadəlövh insanlarda yarana bilərdi, mən də yox! Aslan İsmayılovun yumşaq, çox yumşaq desəm, salamat adam olmadığını dəqiq bildiyimdən, paylaşımdakı “layihə” və “koordinator” sözlərini görən kimi, ağlıma ermənilər gəldi. Aslan İsmayılov Azərbaycana, azərbaycanlılara, vətəndaş cəmiyyətinin inkişafı kimi idealist təşəbbüslərə qoşulan bir oğulla əsla və əsla qürur duymazdı. Bir el deyimini dəyişib desək, atası gəzən ağacı balası budaq-budaq gəzməli, ermənilərlə iş birliyi qurmalı idi.

Çox adam bilir ki, hələ 1989-cu ildə “Sumqayıt hadisələri” ilə bağlı imperiya prokuroru olaraq iştirak etdiyi məhkəmə prosesində o, erməniпərəst mövqe tutmuş, ermənilərə qarşı zorakılıq törətməkdə təqsirli bilinən bir çox soydaşımıza ölüm hökmü də daxil ən ağır cəzalar istəmişdi. Lap yaxın günlərə qədər azərbaycanlı iş adamı, “Xəmsə” MMC-nin sahibi Mürvət Həsənlini Türkiyədəki “Emre Piliç” şirkətinin ortaqları olan ermənilərin etibarnaməsi əsasında divana çəkir, ancaq vəkil statusu olmadan hüquqi mübahisəni məhkəmədə deyil, sosial şəbəkədə söyüş, təhqir, böhtanla aparırdı.

Üçüncüsü, Aslan İsmayılovun fəaliyyətini gündəlik diqqətdə saxlayan bir jurnalist, siyasi təhlilçi olaraq adım kimi əmin idim ki, Ermənistan kəşfiyyatının trolları onu ciddi şəkildə dəstəkləyir və bu dəstək öncədən razılaşdırılmış fəaliyyət planı əsasında verilir. Elə bu səbəbdən də düşünürdüm və hətta yaxın dostlara da zaman-zaman deyirdim ki, cidanı çuvalda çox gizlətmək mümkün olmayacaq, bu barədə hər hansı ipucu üzə çıxacaq. Elə bu səbəbdən də Kristina Puşaunun adına “Armenia” yazaraq “Google” axtarış sistemində düyməni basdım və... ŞOK! Daxili inamım bu xanımcığazın erməniпərəst olacağı, İrəvana səfər edib Azərbaycan əleyhinə nitqlər söyləyəcəyi yönündə idi, ancaq qarşıma elə bir fakt çıxdı ki... Məlum oldu ki, Aslan İsmayılovun dəfələrlə öz “Facebook” səhifəsində adını çəkdiyi, fəaliyyətini təqdir etdiyi, həyata keçirdiyi layihələrdə soydaşlarımızı fəal iştirak etməyə çağırdığı, oğlu Ziyəddinin “hayılmayıl” şəkillər çəkdirərək rəsmən Azərbaycan üzrə nümayəndəsi olduğu Kristina Puşau... ERMƏNİDİR, ERMƏNİ DİASPORUNUN FƏAL NÜMAYƏNDƏSİDİR!

Budur, indi təqdim edəcəyim linkdə deyilir ki, Puşau bakalavr təhsilini 2012-ci ildə başa vurub. Bakalavr təhsili aldığı Cənubi Kaliforniya Universitetində Erməni Tələbələr Assosiasiyasına başçılıq edib. Cənubi Kaliforniya Universiteti isə erməni diasporunun mətəsi sayılan Los-Anceles şəhərinin qəlbində yerləşir, həmin universitetdə xeyli sayda hay təhsil alır.

https://ccsddinternblog.wordpress.com/intern-biographies/2015-2016-intern-biographies/?fbclid=IwAR2iavV6-UjDnroq25-nVZEIwjtGWHbZWCEROGMCnnHM-4D2Tk_emyflyfl

Odur ki, Erməni Tələbə Assosiasiyasına mənşəcə hay olmayan birinin başçılıq etməsi mümkün deyil. Lakin Kristinanın soyadının “yan” sonluğu ilə bitməməsi onun ailəsinin ABŞ-da çoxdan məskunlaşdığını söyləməyə əsas verir. Hətta bunun əksini fərz etsək və Puşaunun mənşəcə erməni olmadığını (hərçənd buna lüzum yoxdur) düşünsək belə, onun erməni diasporunun təsirində olması faktı öz əhəmiyyətini itirmir. Belə ki, ABŞ-dakı erməni tələbələr assosiasiyaları diasporun beyin mərkəzi sayılan Erməni Araşdırmaları İnstitutunun bir növ gənclik qolları kimi fəaliyyət göstərir. Ayrıca, Kristinanın sosial şəbəkələrdə, açıq internet resurslarında yazdığı ermənilərə dəstək mesajları bir yana, onun başçılıq etdiyi tələbə təşkilatının qondarma “erməni genosidi” ilə bağlı Cənubi Kaliforniya Universitetində təşkil etdiyi aksiya görünən dağa bələdçi axtarmağa yer qoymur.

Bir ayağı Gürcüstanda, bir ayağı Los-Ancelesdə olan Kristina heç də sıradan bir aktivist təsiri bağışla-

mır. O, Gürcüstanın eks-prezidenti Saakaşvili ilə yaxın dostdur, öz dostunu müdafiə məqsədi ilə zaman-zaman aksiyalar təşkil edib. Kristina, həmçinin müxtəlif xarici kütləvi informasiya vasitələrində siyasi ekspert kimi çıxışlar edir, demokratikləşmə prosesinə dəstək adı altına layihələr icra edir, həmin layihələr əsasən Gürcüstanda, Ukraynada "inqilabi proses"lər üçün gənclərin fəallaşdırılmasına xidmət edir. Hər halda, onun okeanın o tayından varıb, Tbilisə gəlib yaşaması, teztez Odessaya getməsi, gedərkən özü ilə xeyli sayda cavanı başına yığması arxasında ciddi maliyyə təminatının olduğunun ifadəsidir. Bu cür yüksək maliyyə dəstəyinin isə ABŞdakı erməni diasporunun və Saakaşvilinin dostu Corc Sorosun fondu tərəfindən verildiyini təxmin etmək çətin deyil. Heç şübhəsiz, belə bir yüksək hazırlıqlı adam nə ABŞ xüsusi xidmət orqanlarının, nə də Ermənistan kəşfiyyatının diqqətindən, nəzarətindən kənarda qala bilməz. ABŞ məlum, Qafqaza Qafqaz əsilli əməkdaşlarını göndərir. Bəs, necə düşünürsünüz, Kaliforniyada erməni diasporunun fəal nümayəndəsi olan cazibədar bir xanımla Ermənistan kəşfiyyatı bağ qurmamış ola bilərmi? Əlbəttə, yox! Odur ki, artıq Azərbaycan xüsusi xidmət orqanları hərəkətə keçməli, Aslan İsmayılov və onun oğlunun Cənubi Kaliforniya Universitetində Erməni Tələbələr Assosasiyasının lideri olmuş, Saakaşvilinin də qatıldığı inqilabi layihələrə Azərbaycan və azərbaycanlıların cəlb edilməsində hansı rol aldıqlarını araşdırmalıdır.

Fotolarda Kristina Puşaunun Erməni Tələbə Assosiasiyasına rəhbərlik etdiyi dönəmlərdə keçirdiyi tədbirlər əks olunub.

Taleh Şahsuvarlı: "Böhtan atıramsa, məni həbs edin, ya da..."

Baş redaktordan DTX rəisi Əli Nağıyevə və XKX-nın rəhbəri Orxan Sultanova yeni müraciət

Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyev cənablarına!

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sultanov cənablarına!

Son iki gündə artıq ikinci dəfədir ki, jurnalist araşdırması ilə əldə etdiyim olduqca ciddi faktlarla bağlı dövlət qurumlarına müraciət edir, dəyərli vaxtınızı alıram. Ancaq buna məcburam, ona görə ki, söhbət bir Azərbaycan vətəndaşı olaraq bütün varlığımla sevdiyim, Müdafiə Nazirliyinin hazırda ehtiyatda olan zabiti kimi uğrunda canımdan keçməyə and içdiyim vətənimin müqəddəratından gedir.

Ümid edirəm ki, dünən kütləvi informasiya vasitələrində yayılmış, Azərbaycan Respublikasının Baş prokuroruna, Dövlət Təhlükəsizliyi Xidmətinin rəsinə, Ədliyyə nazirinə ünvanladığım müraciətlə tanışsınız. Bu müraciət cəmiyyətdə böyük rezonans doğurub və orada səsləndirdiyim faktlar böyük ictimai diqqət cəlb edib. Bir daha qeyd etmək istəyirəm ki, həmin müraciətdə mən əvvəllər ölkəmizdə vəkillik fəaliyyəti ilə məşğul olmuş, lakin yol verdiyi nöqsanlara görə AR Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmiş Aslan İsmayılovun və onun oğlu Ziyəddin İsmayılovun xaricdəki erməni diasporunun fəal nümayəndəsi Kristina Puşau ilə əlaqələrindən danışmış, səlahiyyətli şəxslərin həmin əlaqələrin müvafiq dövlət qurumları tərəfindən araşdırılması üçün göstəriş verilməsini xahiş etmişdim.

Bu gün Aslan İsmayılov öz Feysbuk səhifəsində çox uzun, qərəzli, erməni diaspor təşkilatları ilə işbirliyini ört-basdır etmək üçün ictimai diqqəti yayındırmağa xidmət edən məkrli bir status paylaşıb və orada yazıb:

"Tirajlanan yazılarda adı hallanan Kristina Puşaunun ermənilərlə əməkdaşlığı həqiqəti əks etdirmir və ancaq şər-böhtan xarakteri daşıyır."

Çox hörmətli Əli müəllim!

Çox hörmətli Orxan müəllim!

Bir daha nəzərinizə çatdırmaq istəyirəm ki, Kristina Puşua adlı ABŞ vətəndaşı həmin ölkənin Los-Anceles şəhərində yerləşən Cənubi Kaliforniya Universitetində (CKU) bakalavr təhsili alıb və 2012-ci ildə sözügedən ali məktəbdən məzun olub. CKU-da təhsil aldığı müddətdə Kristina Puşau universitetdə fəaliyyət göstərən Erməni Tələbələr Assosasiyasının (ETA) lideri olub, ABŞ-dakı və bütün dünyadakı erməni diasporunun əsas beyin mərkəzi olan "Erməni Araşdırmaları İnstitutu" ilə yaxından əməkdaşlıq edib. CKU ETA-nın "Facebook" səhifəsi mövcuddur. Həmin səhifədə qurumun Azərbaycan və Türkiyə əleyhinə təşkil etdiyi aksiyalar, o cümlədən Kristina Puşaunun həmin qurumun üzvü kimi müxtəlif tədbirlərdə iştirakını təsdiq edən çox sayda foto var. Kristina Puşaunun CKU ETA sədri olması barədə onun bioqrafik məlumatlarında əks olunan qeydin və yuxarıda bəhs etdiyim "Facebook" səhifəsinin linkləri budur:

https://ccsddinternblog.wordpress.com/.../2015-2016-intern-.../...

https://www.facebook.com/.../a.242169099167.../242169892500681/...

Aslan İsmayılov və oğlu Ziyəddin İsmayılovun Kristina Puşaunun hazırda rəhbərlik etdiyi Gənc Liderlər Təşəbbüsü layihəsi ilə bağlı özləri tərəfindən paylaşılmış statuslar, fotoşəkil və məqalə linkləri mövcuddur. Bütün bu məlumatlarda özləri təsdiq edirlər ki, Ziyəddin İsmayılov Kristina Puşaunun layihəsində koordinator vəzifəsi tutur və onun işi azərbaycanlıları həmin proqrama cəlb etməkdir. Soydaşlarımızın vaxtilə erməni tələbə təşkilatına rəhbərlik etmiş, erməni diasporu ilə dərin əlaqələri açıq-aşkar olan, çox güman, Ermənistan xüsusi xidmət orqanları ilə də uzlaşdırılmış fəaliyyət göstərən Kristina Puşaunun təsir dairəsinə yönləndirilməsi dövlət təhlükəsizliyinə təhdid yaradan fəaliyyətdir. Odur ki, bu müraciətlə məni qəbul etməyinizi, əgər bütün söylədiklərimin yanlış olduğuna kiçicik bir şübhə olarsa, elə oradaca həbs etməyinizi, faktlar öz təsdiqini taparsa isə, müvafiq qaydada rəsmi araşdırmaya başlanılmasına göstəriş verməyinizi xahiş edirəm.

Mənim əsl adı "Allahverdi" olan Aslan İsmayılovla və onun oğlu ilə hər hansı şəxsi problemim yoxdur. Ancaq onların hər birimizin keşiyində durmağa mükəlləf olduğumuz Azərbaycan Respublikasında erməni diaspor təşkilatları ilə birbaşa bağlılığı olan şəxslərlə işbirliyinə qətiyyən göz yummaq fikrində deyiləm, ona görə ki, həmin əməkdaşlıq ölkəmizdə ictimai rəyi Azərbaycan hakimiyyətinin əleyhinə çevirmək üçün platforma təsiri bağışlayır.

Bir daha bu müraciəti oxumağa vaxt ayırdığınız üçün sizlərə səmimiyyətlə təşəkkür edir və məsələnin ciddiliyini, aktuallığını, təxirəsalınmaz tədbirlər görülməsinə olan böyük ehtiyacı nəzərə alaraq operativ reaksiya göstərəcəyinizə ümid edirəm.

Taleh Şahsuvarlıdan hüquq-mühafizə orqanlarının rəhbərlərinə Aslan İsmayılovla bağlı müraciət

Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalıdır

AzNews.az xəbər portalının baş redaktoru Taleh Şahsuvarlı üç dövlət qurumuna sosial media hesabı vasitəsilə müraciət edib. Müraciəti təqdim edirik:

"Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov cənablarına!

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov cənablarına!

Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyev cənablarına!

Hörmətli Baş prokuror!

Hörmətli Nazir!

Hörmətli DTX rəisi!

Mən, Şahsuvarov Taleh Novruz oğlu 1995-ci ildən etibarən jurnalistika sahəsində fəaliyyət göstərirəm. Hazırda Azərbaycanda ən oxunaqlı saytlardan biri olan AzNews.az xəbər portalının rəhbəriyəm. Portalımız Azərbaycan prezidenti İlham Əliyevin siyasi kursunu ardıcıl müdafiə edən informasiya resurslarından biridir və kollektivimiz öz fəaliyyətində hər zaman milli maraqlarımızı ön planda tutur. Sizə müraciət etməkdə məqsədim diqqətinizi milli maraqlarımıza, ərazi bütövlüyümüzə və dövlət təhlükəsizliyimizə birbaşa təhdid yaradan olduqca önəmli bir fakta cəlb etməkdir.

Vaxtilə Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olmuş, fəaliyyətində yol verdiyi nöqsanlara görə, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmiş Aslan İsmayılov bu günlərdə öz Facebook səhifəsində bir məlumat paylaşdı. Həmin məlumatda bildirilirdi ki, Gürcüstanda "Yeni Liderlər Təşəbbüsü" adlı bir layihə həyata keçirilir və həmin layihənin rəhbəri Kristina Puşau adlı ABŞ vətəndaşı, Azərbaycan üzrə koordinatoru Ziyəddin Aslan oğlu İsmayılovdur. Bu layihə ilə bağlı müxtəlif kütləvi informasiya vasitələrində məlumatlar dərc olunub. O cümlədən Aslan İsmayılovun oğlu Ziyəddin İsmayılov da sosial şəbəkədə Kristina Puşau ilə birgə çəkilmiş şəkillərini paylaşaraq layihədə koordinator olaraq iştirak etdiyini təsdiqləyib.

Mən bu barədə jurnalist araşdırması apardım və məlum oldu ki, layihənin rəhbəri Kristina Puşau 2012-ci ildə ABŞ-ın Los-Anceles şəhərində yerləşən Cənubi Kaliforniya Universitetinin bakalavr pilləsini bitirib. Kristina Puşau orada təhsil alarkən universitetdəki Erməni Tələbələr Assosiasiyasının rəhbəri olub. Cənubi Kaliforniya Universiteti Erməni Tələbələr Assosiasiyasının Facebook səhifəsi mövcuddur. Bu səhifəyə göz gəzdirdikdə məlum olur ki, həm Kristina Puşaunun rəhbəri olduğu müddətdə, həm də ondan sonra təşkilat Azərbaycan və Türkiyə əleyhinə bir sıra aksiyalar təşkil edib. Həmin təşkilat ABŞ-dakı erməni diasporunun beyin mərkəzi olan Erməni Araşdırmalar İnstitutu ilə sıx əməkdaşlıq etməklə qondarma "erməni genosidi" ilə bağlı universitetdə çox sayda tədbirlər keçirib, o cümlədən 2016-cı ildəki "Aprel döyüşləri"ndə Azərbaycana qarşı açıq təbliğat aparıb.

Odur ki, Cənubi Kaliforniya Universitetindəki Erməni Tələbə Assosiasiyasına rəhbərlik etmiş şəxs olaraq Kristina Puşaunun həyata keçirdiyi layihənin rəsmi məqsədi nə olursa-olsun, mahiyyətcə Azərbaycan Respublikasının milli maraqlarına, dövlət təhlükəsizliyinə və ərazi bütövlüyünə zidd olduğu aşkardır. Maliyyə qaynaqları qaranlıq olan bu layihənin ABŞ-dakı erməni diasporunun maraqlarına xidmət etməsi, o cümlədən Ermənistan xüsusi xidmət orqanlarının dəstəyi ilə reallaşdığını da təxmin etmək çətin deyil.

Bütün hallarda hesab edirəm ki, Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalı və bu barədə cəmiyyətə rəsmi açıqlama verilməlidir.

Araşdırma üçün mənə məlum olan və saytımızda yayınlanmış faktları qaynaqları ilə birgə yüksək diqqətinizə təqdim edirəm:

https://www.aznews.az/news/political_-debate/238330.html





ccsddinternblog.wordpress.com/intern-biographies/2015-2016-intern-biographies/?fbclid=IwAR38BpQpDvyTu2Em_v_xDjTP

Originally from Los Angeles, California, Christina Pushaw is a first-year master's student at Johns Hopkins University SAIS, concentrating in European and Eurasian Studies with a minor in International Political Economy. She received her Bachelor of Arts in History and Russian Area Studies from the University of Southern California in 2012, where she worked as a research assistant in the Gould School of Law and held leadership positions in the Armenian Students Association and Russian Club. Since graduating, she has helped bring college counseling services to many schools and nonprofit organizations in the former USSR, especially in Georgia and Azerbaijan. Her interests as Research Assistant to Professor Justin Frosini include the challenges of constitutional reform, especially decentralization, in modern-day Ukraine, as well as the democratic development of the former Soviet states in Central Asia. Pertinent to her professional experience, she is also interested in helping promote the EULR Summer School among scholars in Eastern Europe and the South Caucasus.

Christina Pushaw is a native English speaker, proficient in Russian, and conversational in Georgian and Ukrainian. She is currently learning Italian.

# Paşinyan təklənir - siyasi güclər onu dalana dirəyiblər

## *Qarabağ klanı Ermənistanın siyasi müxalifəti ilə bir araya gəlir*

***Ermənistanın baş naziri Nikol Paşinyanın siyasi arenada təklənməsi prosesi get-gedə güclənir və bunun əsas səbəblərindən biri də, baş nazirin verdiyi vədlərini yerinə yetirməməsi, boş-boş bəyanatlar səsləndirməsi, eləcə də, erməni xalqının günbəgün artan narazılığıdır. Artıq Ermənistanın bir sıra ictimai-siyasi birlikləri, tanınmış siyasiləri və digər şəxslər anti-Paşinyan hərəkatına start verməklə, onun qısa zamanda, öz postunu tərk etməsi üçün var gücləri ilə çalışırlar. Belə ki, onlar bunu ölkənin və xalqın təhlükəsizliyi ilə əlaqələndirirlər.***








Başqa tərəfdən, hazırda Qarabağ klanı ciddi şəkildə bu prosesə qoşularaq, Nikolun devrilməsi istiqamətində müxtəlif gizlin, ya da açıq planlar hazırlayır. Əbəs deyil ki, bu yaxınlarda Ermənistan Xüsusi İstintaq Xidməti qondarma Qarabağ rejiminin milli təhlükəsizlik şurasının keçmiş katibi, general-mayor Vitali Balasanyanı istintaqa dəvət edib. Bunun üçün İstintaq Xidməti qondarma rejimin "prokurorluq" orqanlarına müraciət edib. Daha dəqiq desək, 10 nəfərin ölümü ilə nəticələnən 2008-ci il 1 mart hadisələri ilə bağlı cinayət işində şahid kimi ifadə verməli olan Balasanyan 2 dəfə istintaqın dəvətini qəbul etməyib. Amma onun Paşinyan hakimiyyətinə qarşı son vaxtlar etdiyi sərt çıxışlar, rəsmi Yerevanda narahatlıqla qarşıalnıb. Belə ki, 2020-ci ildə işğal altındakı torpaqlarda keçirilməli olan "prezident seçkilərin"nə namizədliyini irəli sürən Balasanyan "Qarabağ klanı"nın əksər üzvlərinin açıq dəmədiyi etirazları dilə gətirir.

### Vitali Balasanyan: "Nikol Paşinyan və bu terrorçu qruplaşma bir-birinin tayıdır"

Onun Nikol Paşinyan və radikal "Ssana Tsrer" qruplaşması barədə sərt çıxışı işə, ölkə cəmiyyətində böyük əks-səda doğurmuşdu. "Nikol Paşinyan və bu terrorçu qruplaşma bir-birinin tayıdır. Biri silahla, digəri isə hakimiyyəti ələ keçirməklə məşğuldur. Qoy Nikol Paşinyanın tərəfdarları bizi eşitsin və addım atsınlar" deyə o, tələb irəli sürüb.

Balasanyanın həbsdə saxlanılan eks-prezident Robert Koçaryanın xeyrinə öz ofisi qarşısında imzatoplama kampaniyasına başlaması da Paşinyanın qəzəbinə səbəb olmuşdu. Faktiki olaraq, bu gün Ermənistandakı siyasi qüvvələrlə iş birliyinə girən "Qarabağ klanı" açıq-aşkar qiyam və inqilaba hazırlaşdığını ortaya qoymaqdadır.



### Mikael Minasyan: "İnqilabımız başladı!"

"Populizm və diktatura daha yaxşı həyat təmin etmir və edə bilməz. Populizm diktaturası ölkənin təhlükəsizliyinə və vətəndaşların rifahına zəmanət vermir". Bu fikirləri isə, bir müddət əvvəl, Ermənistanın Vatikanda və Portuqaliyadakı keçmiş səfiri Mikael Minasyan bildirib.

Onun sözlərinə görə, hazırda Ermənistanda hakimiyyətdə olanlar dünən ağızları köpüklənə-köpüklənə irəlidə hər şeyin daha yaxşı, sadəcə, gözəl olacağını bildirirdilərsə, bu gün eyni təzyiqlə hər şeyin bir neçə il əvvəlkindən daha pis olmadığını sübut etməyə çalışırlar. Bir müddət sonra isə, hər şeyin o qədər də pis olmadığını eyni həvəslə sübut edəcəklər. Kütləvi hipnoz tədricən hakimiyyətin yeganə istiqamətinə çevrilir. Sabiq səfirin sözlərinə görə, inanılmaz sürətlə yeni bir trend, yeni hərəkat gəlir - "Aykakan Jamank" ölkəsinə son".

"Əgər biz birlikdə yaxınlaşan fəlakətin gerçəkliyini tam dərk ediriksə, özümüzü ölkəmizin və gələcəyimizin sahibi sayırıqsa, "Aykakan Jamanak" ölkəsinə son" hərəkatına qoşulmağa hazırıqsa, deməli, nə etdiyimizi bilirik. İnqilabımız başladı! Buna görə nə etməliyik?

Əslində, sağlam düşüncəli bir insanın sülh şəraitində yaşamaq, problemlərini həll etmək, uşaqların tərbiyəsi haqqında düşünmək, hədəflər qoymaq, gələn ay, il və ya gələcək üçün öz işlərini planlaşdırmaq istəyi aydındır. Bu gün ətrafındakı çılğın, dəli insanlar, sağlam olmayan və bitməyən səs-küylə bunu etmək mümkün deyil.

Amma hər şey öz əlinizdədir. Danışın və yeni bir cərəyanın, yeni bir hərəkatın bir hissəsi olun! İş yerində danışın, dostlarınızı ziyarət edərkən və ya söhbət edərkən həyətdə danışın. Bu, inqilaba çağırış deyil. Bu, ölkəni xilas etməyin yoludur. Nə qədər çox olsaq, sabahkı fəlakətin ölçüsü də, o qədər kiçik olar. Buna görə də, hərəkət etmək lazımdır. Elə indi, gecikmədən" deyə sabiq erməni səfir vurğulayıb.

Minasyan əlavə edib ki, proses artıq başlayıb: "Ana dilimiz və tariximiz adına parlaq bir gənclik İrəvanın mərkəzindəki küçələrə çıxdı. Parisdə hadisələrin mahiyyətini yetərincə dərk edən soydaşlarımız etiraz səslərini qaldırırlar. Artıq bir çox başqa proseslər başlayıb. Onlara qoşulun və ya yenilərini yaradın. Yeganə səhv hərəkətsizlikdir".

Beləliklə, fakt budur ki, Ermənistanda qiyam ab-havası əsir və bütün qüvvələr, bilavasitə anti-Paşinyan fəaliyyətinə köklənib. Bütün bunlar isə, əslində, işğalçı rejimin rəhbərliyinə, kimliyindən asılı olmayaraq, gələnlərin hər birinin eyni aqibət yaşayacağı anonsudur.

**Rövşən RƏSULOV**

# Ermənistan cəzasız qala bilməz

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürən Rusiya, Fransa və ABŞ üzərilərinə götürdükləri öhdəliklərə uyğun fəaliyyət göstəmirlər. Əksər hallarda, həmsədr ölkələrin rəsmi şəxsləri münaqişənin sülh yolu həllinin ruhuna zidd olan açıqlamalar verirlər. Bu günlər Ermənistana rəsmi səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrov erməni maraqlarına uyğun açıqlamalar vermişdir. Təbii ki, bu da, münaqişənin həllini uzanmasına gətirib çıxarır. Söhbət etdiyimiz müsahiblərimiz münaqişənin həlində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin qeyri-müəyyən mövqe sərgiləmələrinin ikili standartlara xidmət etdiyini bildirdilər.*

### Politoloq Elşad Mirbəşiroğlu: "ATƏT-in Minsk Qrupu qeyri-obyektiv mövqe sərgiləyir"



- ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində səmərəsiz fəaliyyətini əsaslandırmaq üçün, artıq əlavə arqumentlərə ehtiyac yoxdur. Yəni 1994-cü ildən bəri ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində heç bir fəaliyyət göstərməyiblər. Əksinə, əksər hallarda Rusiya, ABŞ və Fransa bu məsələ ilə bağlı fərqli mövqelərə malik olublar. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu, bir çox hallarda, münaqişə vəziyyəti ilə bağlı qeyri- obyektiv mövqe sərgiləyiblər. Bütün hallarda, artıq dəfələrlə qeyd etmişik ki, ATƏT-in Minsk Qrupu münaqişənin tənzimlənməsi istiqamətində səmərəli fəaliyyət göstərmək iqtidarında deyil. Yəni bizim ATƏT-in Minsk Qrupunun həmsədrlərindən münaqişənin tənzimlənməsi istiqamətindən bundan sonra səmərəli fəaliyyət göstərəcəyini gözləməyimiz sadəlövhlükdür. Çünki bu günə kimi, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində, ən azından, obyektiv mövqe sərgiləməyibdir. Azərbaycan tərəfi öz mövqeyi ilə nümayiş etdiribdir ki, o, beynəlxalq hüquq normalarına həssaslıqla yanaşır, münaqişənin dinc yolla tənzimlənməsi vasitələrini dəstəkləyir və öz əməlində bunu nümayiş etdirir. Ölkə Prezidenti də, ən mötəbər tirbunalardan bəyan edibdir ki, Azərbaycan humanizm prinsiplərinə söykənərək, beynəlxalq hüquq normalarına hörmətdən çıxış edərək dövlətlərarası münaqişələrin dinc tənzimlənməsinin vacibliyi prinsipini rəhbər tutaraq, münaqişənin danışıqlar vasitəsi ilə tənzimlənməsini istəyir və bu istiqamətdə səylərini əsirgəmir. Ermənistan tərəfi isə, həmişə aşkar şəkildə nümayiş etdiribdir ki, status-kvo vəziyyətini saxlanılmasını istəyir və bu istiqamətdə əlindən gələni edir. Təəssüflər olsun ki, Ermənistanın bu mövqeyinə, müəyyən mənada, dəstək elə ATƏT-in Minsk Qrupu tərəfindən gəlir. Ermənistana rəsmi səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrov qeyd edir ki, "münaqişənin tənzimlənməsində müqəddəratı təyin etmə və ərazi bütövlüyü prinsiplərinə istinad etmək lazımdır". Olsun, müqəddəratı təyin etmə hüququ BMT Nizamnaməsində və müxtəlif beynəlxalq normativ hüquqi aktlarda da ifadəsini tapıb. Azərbaycan tərəfi də, məhz bu məqama hörmətlə yanaşır və Dağlıq Qarabağa Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ən yüksək statusu verməyə hazır olduğunu bəyan edibdir. Yəni bizim buradan çıxaracağımız nəticə ondan ibarətdir ki, Sergey Lavrov orada təkcə müqəddəratı təyin etmə prinsipini qabartmır, eyni zamanda, ərazi bütövlüyü prinsipini də qabardıb. Elə biz bu fikrə istinad edərək, qeyd edə bilərik ki, bəli, ərazi bütövlüyü prinsipi varsa, onda Azərbaycanın maraqları nəzərə alınır, belə ki, beynəlxalq hüquq normasında, BMT Nizamnaməsində aydın şəkildə göstərilir ki, müqəddəratı təyin etmə prinsipi ərazi bütövlüyü prinsipi üzərində üstünlüyə malik deyil. Yəni Azərbaycanın ərazi bütövlüyünün təmin olunması prioritetdir. Azərbaycanın ərazi bütövlüyü çərçivəsində isə, Qarabağa status vermək mümkündür. Bütün bunları qeyd etməkdə məqsədim ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən əsas gözləntimiz ondan ibarətdir ki, münaqişə vəziyyəti ilə bağlı obyektiv mövqe nümayiş etdirərək, işğalçını öz adı ilə çağırsın. Yəni bəyan etsin ki, Ermənistan işğalçı dövlətdir.

### Politoloq Elxan Şahinoğlu: "Rusiyanın vasitəçiliyi bizdə müəyyən qədər şübhələr yaradır"



- Ermənistana rəsmi səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrovun erməni maraqlarına uyğun açıqlaması yəqin onun şəxsi fikri deyil. Görünür, Moskvada, çox təəssüf ki, belə düşünənlər az deyil. Faktiki olaraq, Lavrov Azərbaycanın işğal edilən ərazisi olan Dağlıq Qarabağın maraqlarının nəzərə alınmasını vurğuladı. Düzdür, Rusiyanın ATƏT-in Minsk Qrupundakı həmsədri Sergey Lavrov fikirlərini bir qədər korrektə edərək deyib ki, münaqişənin həlli Dağlıq Qarabağdakı bütün xalqların maraqlarına uyğun olmalıdır. Yəni demək istəyir ki, Dağlıq Qarabağa qayıdan azərbaycanlıların da maraqları nəzərə alınmalıdır. Amma orada Sergey Lavrova verilən suallara verilən cavab, bir daha onu bizə sübut edir ki, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli problematikdir. Amerikalı diplomatlar və həmsədrlərdən mən necə dəfə eşitmişəm ki, onlar bildiriblər ki, Dağlıq Qarabağ münaqişəsinin həlli mərhələsində Dağlıq Qarabağ ətrafında ən azı, 5 rayon boşaldılmalıdır. Bu sözü isə, heç vaxt Sergey Lavrovdan eşitməmişik. Belə olan halda, Rusiyanın vasitəçiliyi bizdə müəyyən qədər şübhələr yaradır. Onu da nəzərə alaq ki, bir qədər əvvəl Rusiya Dövlət Dumasının komitəsinin sədr müavini Zatulin də, qanunsuz olaraq, Dağlıq Qarabağa səfər edib, eyni zamanda, 2 gün öncə Rusiya televiziya kanalına müsahibəsində deyir ki, "onsuz da Dağlıq Qarabağ müstəqildir, uzaqbaşa 5 rayonu Azərbaycana qaytara bilərlər", yəni onun ağzının üstündən heç kəs vurmur. Bir sözlə, Rusiyanın vasitəçiliyi ilə bağlı bizdə haqlı suallar yaranır.

### Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: "Münaqişəsinin həllində qeyri-müəyyənlik yaradan, əslində, ATƏT-in Minsk Qrupunun üzvi olan ölkələrdir"



- Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində qeyri-müəyyənlik yaradan, əslində, ATƏT-in Minsk Qrupunun üzvi olan ölkələrdir. Həmsədr ölkə rəsmilərinin bəzi açıqlamaları, bilavasitə münaqişənin həllinin uzanmasına xidmət edir. Yəni vasitəçi ölkənin nümayəndələri, xüsusilə də, xarici işlər naziri səviyyəsində bu cür bəyanatlar vermək heç də münaqişənin həllinə yardım göstərmir. Əksinə, bu problemin uzanmasına xidmət edir. Çünki vasitəçi ölkələr üzərilərinə götürdükləri öhdəliklərə uyğun olaraq, münaqişənin həll olunması üçün kifayət qədər bu məsələyə ciddi yanaşmalıdırlar. Yəni burada işğalçı da bəllidir, işğala məruz qalan ölkə də məlumdur. Azərbaycanın bir milyon iki yüz mindən çox qaçqını və köçkünü hələ də öz yurduna qayıda bilmir. Sanki bunlar, Azərbaycanın yaşadığı problemləri göz ardına alırlar və görmək istəmirlər. Yəni bu qədər göz ardına almaq və məsələni hər dəfə ertələmək növbəti ilə saxlamaq və bunların hamısında əsas vasitəçi rol aparmaqla münaqişənin həllinə nail olmaq olmaz. Bütün bunlar, onu deməyə əsas verir ki, bəyanatlar və açıqlamalar məqsədli şəkildə həyata keçirilir. Azərbaycan güclü və qüdrətli ölkə olaraq bu məsələdə artıq öz dirənişini göstərməlidir. Ölkə Prezidenti İlham Əliyev çıxışlarında, bəyanatlarında bu məsələnin heç bir şərt olmadan qeyd-şərtsiz həllinin tapılmasının vacibliyini bildirib. Artıq Azərbaycanın da səbir kasasının həddi olduğunu vasitəçilər fərqinə varmalıdırlar.

**GÜLYANƏ**

# Ailə başçısını itirməyə görə sosial müavinət yeni qaydada tənzimlənəcək

***Təyin edilmiş əmək pensiyasının məbləğinin əmək pensiyasının minimum məbləğinə çatdırılması məqsədi ilə ödənilən məbləğ əmək pensiyasının sığorta hissəsinin tərkibi hesab ediləcək. SİA-nın xəbərinə görə, bu, "Əmək pensiyaları haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.***



Layihəyə əsasən, ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin onlardan hər birinə düşən məbləği "Sosial müavinətlər haqqında" qanun ilə müəyyən edilmiş ailə başçısını itirməyə görə sosial müavinətlərin məbləğindən az olduqda, əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər biri ailə başçısını itirməyə görə pensiya əvəzinə ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququna malik olacaq. Qanun gələn il yanvarın 1-dən qüvvəyə minəcək. Sənəd Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılaraq III oxunuşda qəbul edilib.

# "TRT Haber": Avrasiyanın ən uzun boru kəməri Azərbaycan təbii qazını Avropaya çatdıracaq

Türkiyənin geniş tamaşaçı auditoriyası olan "TRT Haber" kanalı Trans-Anadolu boru kəməri (TANAP) və "Trans-Adriatik" (TAP) qaz boru kəmərlərinin birləşməyə hazır olması barədə geniş reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, "Enerjinin İpək yolu" başlığı ilə yayımlanan reportajda Azərbaycanda istehsal olunan təbii qazın Avropaya nəqli istiqamətdə həyata keçirilən TANAP layihəsinin ideya olaraq ortaya çıxması, təməlinin qoyulması, açılışı və sair proseslər barədə türkdilli tamaşaçılara müfəssəl məlumat verilir. Reportajda Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə iştirakı ilə bu günə qədər TANAP-la bağlı keçirilən mərasimlərdən, o cümlədən bu boru kəmərinin tikintisindən və mövzunu əhatə edən infoqrafikalardan ibarət kadrlar əks olunub.




Diqqətə çatdırılıb ki, noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala bölgəsinə TANAP və TAP xətlərinin birləşməsi münasibətilə mərasim keçiriləcək. Bununla da, Avrasiyanın ən uzun boru xətti Azərbaycan qazının Avropaya nəqlinə başlayacaq.

# Arif Hacılı və Əli Kərimli siyasətdən getməlidirlər

## *Cəbhəçilər və müsavatçılar AXCP və Müsavat rəhbərliyi qarşısında ultimativ şərt qoyublar*

***Müxalifət düşərgəsində təmsil olunan dağıdıcı xislətli partiya funksionerlərinin müxtəlif qaranlıq işlərlə məşğul olmaları barədə zaman-zaman çoxsaylı faktlar göstərilib, yazılar yazılıb və fikirlər səsləndirilib. Ancaq müxalif ünsürlər bu deyilənləri və faktları qəbul etmək istəməyib, bütün bunları özlərinə qarşı siyasi təzyiq kimi təqdim etməyə çalışıblar. Ancaq Almaniya polisinin bir qrup "söyüş müxalifəti" üzvlərinin həbs edilməsi və onlara qarşı ilkin ittihamda miqrant alverində və digər qanunsuz əməllərdə günahlandırılması birbaşa AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Cəmil Həsənlinin, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin və digərlərinin ifşası deməkdir. Çünki həbs olunan şəxslər sözügedən şəxslərin rəhbərlik etdikləri partiyaların üzvləridir.***





Almaniyanın nüfuzlu "spiegel.de" saytının yazdığı məlumatda bildirilir ki, Almaniyanın Frankfurt - Mayn, Köln, Koblenç və Düsserdorf şəhərlərində reyd keçirilib, 13 evə obyektə basqın edilərək, bir neçə nəfər həbs olunub. Həmin dəstə üzvləri qaçaq yolla Azərbaycandan xeyli sayda insanı Almaniyaya aparırmışlar. Almaniyanın "swr.de" saytı isə yazır ki, həbs olunanlardan biri dəstənin rəhbəridir. 8 şübhəlinin isə, istintaqı aparılır. Onların, ən azı, 20 nəferi Azərbaycandan Almaniyaya 3000-lə 10.000 avro arasında qaçaqmalçılıqda ittiham edilirləcək. İlkin araşdırmalar zamnı, bəlli olub ki, saxta müxalifətçi arayışı ilə xaricə üz tutanlar qanunsuz əməllər hesabına böyük məbləğdə pullar qazanıblar. Misal olaraq Müsavat partiyasının Avropa Koordinasiya Mərkəzinin sədr müavini Mehdi Xəlilbəylinin 2015-ci ildən bu yana mühacir alverindən 300 000 avro qazanc əldə etməsini göstərmək olar. Nəzərə alsaq ki, o, bu proseslərdə iştirak edən şəxslərdən, sadəcə, biridir, hətta birincisi də deyil - partiyada ondan daha böyük "boss"lar da var, - o halda, söhbətin milyonlarla avrodan getdiyi aydın olur.

### Həbs olunanlar siyasi mühacir deyil, "siyasi dəllallar"dır

Almaniyanın Koblenz şəhərinin məhkəməsinin qərarına əsasən, təqsirləndirilən şəxslərdən biri - bu şəbəkənin əsas fiqurlarından olan Rəşad Məmmədovun ifadələri daha dəhşətli mənzərə yaradır. Onun dediklərinə görə, mühacir alveri zamanı, hətta Azərbaycan qadınının namusu da biznes obyekti olub. Bəzi gənc xanımlar oturum statusu almaq üçün müxalifətin Avropadakı rəhbər şəxslərinin yatağından keçməli imişlər... Yəni sözün həqiqi və ən pis mənasında, bir mafiya strukturundan söhbət gedir, müxalifətdən yox! Almaniya polisinin keçirdiyi əməliyyatın ardınca, təbii ki, Azərbaycan hüquq-mühafizə orqanları da araşdırmalara başlayacaq və bu zaman müxalifət partiya sədrləri də istintaqa cəlb olunacaqlar. Bu zaman bir daha məlum olacaq ki, AXCP sədri Ə.Kərimli , Müsavat başqanı A.Hacılı və digərləri nəyə görə, saxta arayışlar verməklə, insanları xaricə mühacirətə göndəriblər. Eyni zamanda, o da aydınlaşacaq ki, nədən A.Hacılı və C.Həsənli tez-tez xaricə üz tuturlar. Bütün bunlardan sonra özündə güc tapıb, siyasi mədəniyyət göstərməyi bacarsalar, sözügedən şəxslər üzüsulu siyasətdən getməlidirlər. Çünki əks halda, onlar haqqında daha tutarlı ifşaedici faktlar üzə çıxacaq. Bu zaman bəlli olacaq ki, nəyə görə, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli və digərləri Polşanın, B.Britaniyanın, Fransanın, ABŞ-ın Norveçin və digər ölkələrin ölkəmizdəki səfirlərilə görüşlər keçirərək, fəaliyyət proqramlarını onlarla müzakirə edib, növbəti təxribat xarakterli göstərişlər alırlar. Tam qətiyyətlə demək olar ki, "Milli Şura"nın oktyabrın 19-da Bakının mərkəzində icazəsiz aksiya keçirməklə, polislə qarşıdurmaya getməsi, Ə.Kərimlinin pozucu hərəkətlərə yol verməsi, C.Həsənlinin və Gültəkin Hacıbəylinin anormal açıqlamaları xarici agenturanın dəsti-xətti, ermənipərəst dairələrin göstərişidir. Məhz bu kimi səbəblərdən, xalq hər dəfə dövlətçiliyə və milli maraqlara zidd addımlar atan və xarici siyasi qüvvələrin əlində təzyiq alətinə çevrilmiş radikal müxalifəti qəbul etmir. Görünən isə, ondan ibarətdir ki, dağıcı müxalifət ictimai rəyin qınağından nəticə çıxarmır. Əksinə, yaramaz və əxlaqsız siyasi fəaliyyətlərini daha geniş formada nümayiş etdirirlər.

### Müxalifəti növbəti qara günlər gözləyir

Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan demokratik inkişaf yolunda inamla irəliləyir. Ölkəmizdə hər bir vətəndaşın mövqeyini açıq şəkildə ifadə etməsi üçün hər cür şərait yaradılmışdır. Ancaq bu, heç də hər hansı bir şəxsə yalan və böhtanla məşğul olmağa, ölkəmizin əleyhinə fəaliyyət göstərməyə imkan vermək kimi başa düşülməməlidir. O cümlədən, ölkə müxalifəti yalnız AXCP və "Milli Şura"dan və Müsavatdan ibarət deyil. Digər müxalifət partyaları da var ki, onlar öz siyasətlərini normal şəkildə apararaq, dövlətçilik maraqlarına zidd hərəkətlərə yol vermirlər. Dağıdıcı ünsürlər konstruktiv qüvvələri müxalifət tərəfi hesab etmir, xəyanətkar və satqın adlandırırlar. Halbuki əsl xainlər elə onların özləridir.

Bir sözlə, artıq müxalifət baş bilənləri özlərinin bəd əməllərinin bədəlini ödəməkdədirlər. Yəqin ki, bundan sonra danışmağa dilləri, vəziyyətdən çıxmağa hesablanan fikirləri olmayacaq. Həm də, ən azı, ona görə ki, artıq Ə.Kərimli ilə A.Hacılını tərəfdaşları onları tənqid edib və istefaya çağırırlar. A.Hacılı isə utanmadan silahdaşlarını ittiham edir. Hətta keçmiş müsavatçıların ünvanına da ittihamlar səsləndirir. Misal kimi A.Hacılının "Yeni Müsavat" qəzetini sərt şəkildə tənqid etməsini göstərmək olar. R.Arifoğlu isə, A.Hacılının iddialarını əssasız adlandırıb. Özünün "facabook" səhifəsində A.Hacılıya ünvanlanan fikirlərində yazır: " A.Hacılı iddia edir ki, "Yeni Müsavat" bizə qarşı kampaniya aparır. Alman polisini də bu hakimiyyət idarə edirmiş, deyir. "Kim harada nə etsə də, bilin ki, arxasında bu hakimiyyət durur" gülünc fikrə yürüdür. Tam qərəz, kor bir nankorluqdur. Çünki bu hadisələr partlaq verəndən bir kəlmə belə yazmadım. Heç yerə açıqlama vermədim. Bir zamanlar canım-həyatım bahasına qurduğum və böyütdüyüm bir partiya iflasa məhkumdur. Məlumatlıyam və prosesin Müsavatın bağlanmasına səbəb ola biləcəyinin fərqindəyəm... Çünki iddiaların bəziləri doğrudur, lakin bu doğrular təsdiqlənərsə, özü cəhənnəm, Müsavat bağlanacaq... Üstəlik, illərdir Müsavat və milli dəyərlərimizə qarşı düşmənlik edən xədicələr onun üstünə ayaq almasın, dost - düşmən bir donqili başqana görə Müsavatı alay yerinə qoymasın, təşkilat daha da dağılmasın deyə, hətta redaktor yazılarında dəstək belə verdirdim... Anlayan, qanan biri olsaydı, mərdimazar və kindar ürəyi imkan versəydi, batdığı yerdə ona uzanan xilas ağacını görə bilərdi".

**İ.ƏLİYEV**

# Müxalif iflas dövrünü yaşayır

***Yenidən sosial şəbəkələrin ulduzuna çevrilməyə çalışan Əli Kərimli, Arif Hacılı və digərləri ölkəmizin əldə etdiyi uğurlara kölgə salmaqla yanaşı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının parlamentin buraxılması təklifi ilə çıxış etməsinə özlərinin dayaz düşüncələrindən yanaşıb, anormal mövqe bildiriblər. Söhbət etdiyimiz müsahiblərimiz müxalifət qaragüruhun mövqelərinin kökündə xaricdən verilən növbəti tapşırıqların dayandığını bildirdilər.***

### Millət vəkili Tahir Rzayev: "Qanunvericilik orqanlarında belə islahatların həyata keçirilməsi təbiidir"



- Müxalifət düşərgəsini təmsil edən şəxslər indiyə kimi nəyə yaxşı deyiblər ki? Növbədənkənar parlament seçkilərinin keçirilməsi parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının təklifidir. Çünki ölkədə istər icra strukturlarında, istərsə məhkəmə orqanlarında çox səmərəli islahatlar həyata keçirilib. Qanunvericilik orqanlarında belə islahatların həyata keçirilməsi təbiidir. Bu, dünya praktikasında var. Baxın, Avropa ölkələrində müəyyən məsələlərlə bağlı növbədənkənar seçkilər keçirilir və parlament yenilənir. Bir sözlə, çox yaxşı haldır ki, bizdə parlament dövlətin qarşıya qoyduğu vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Ölkə rəhbərinin siyasi xəttini və xalqın maraqlarını müvəffəqiyyətlə həyata keçirib. Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının mövqeyi ondan ibarətdir ki, növbədənkənar parlament seçkiləri keçirilsin. Bu seçkilərdə xalq öz sözünü desin və parlamentə yeni üzvlər seçsinlər. Yəni bunu şouya çevirmək, nə isə siyasi məqsədlə üçün istifadə etmək, onsuz da, Əli Kərimlinin, Arif Hacılı və digərlərinin daimi əllərində tutduğu əsasdır. Demək olar ki, adları çəkilən bu şəxslər hər bir şeyə qara yaxırlar. Onsuz da, müxalifət düşərgəsini təmsil edən şəxslər keçirilən bütün islahatlar haqqında mənfi fikirlər söyləyirlər. Ancaq onların hay-küyü boş qazanı danqıltmaqdan başqa bir şey deyil.

### Media eksperti Müşfiq Ələsgərli: "26 ildir ki, müxalifət eyni şeyləri çərənləyir"



- Əli Kərimli, Arif Hacılı və digərləri bu məsələyə belə şübhəli və iyrənc yanaşmasında "qeyri-adi" bir şey yoxdur. Nəyə görə? Çünki onların özündə belə siyasi mədəniyyət yoxdur. Demək olar ki, adları çəkilən bu şəxslər heç vaxt ölkə, ümumi komanda maraqları və islahatların inkişafı naminə heç vaxt bir-birlərinə güzəştə getməyiblər, addım atmayıblar, yapışdıqları postdan əl çəkməyiblər. Bir sözlə, onlara qeyri-adi gəlir ki, yəni bir insan tutduğu vəzifəni ölkənin inkişafı naminə və xalqın rifahının yaxşılaşması görə dəyişə bilərmi? Yəni sözügedən şəxslər üçün bu məsələ çox qeyri-adi bir haldır. Adları çəkilən şəxslər həm hakimiyyətdə olanda heç vaxt bir-birlərinə güzəştə getməyiblər, həm də 26 ildir ki, müxalifətdə eyni postda oturublar və eyni şeyləri çərənləyirlər. 26 ildir ki, onlar oturduqları stollarını nə özlərini, nə də ki, ideyalarını dəyişmirlər. Bir sözlə, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının irəli sürdüyü təklif, həqiqətən də, bir yenilikdir, böyük siyasi mədəniyyətdir ki, ölkədə islahatlara dəstək vermək naminə tutduqları postdan geri çəkilirlər. Bu, böyük mədəniyyətdir və bu mədəniyyət müxalifətdə yoxdur və heç vaxtı da olmayıb. Bu baxımdan, adları çəkilən şəxslərin bu məsələyə bu qədər gülünc, ironiya ilə yanaşmaları da başa düşüləndir. Çünki onların özündə heç vaxtı belə siyasi mədəniyyət olmayıb.

**GÜLYANƏ**

# 30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür

***Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla, ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan, təxminən, 100 milyon dollar həcmində qiymətləndirilmişdir.***

Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq, 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi. Ölkəmiz haqqında dünyaya dolğun məlumatların çatdırılmasında xüsusi rola malik olan bu sahəyə Ulu Öndər Heydər Əliyevin ayırdığı diqqətin məntiqi nəticəsidir ki, Onun Sərəncamı ilə təsdiqlənən "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" qarşıya qoyulan məqsədlərə çatmaq üçün geniş yollar açmış oldu. Milli strategiya rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə



olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı.

Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

### "Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır"

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu və dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

### İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır

Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 121 televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır.

Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğulu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir: "Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace - 2" telekommunikasiya peykinin orbitə çıxarılması da bu sahədə növbəti qələbə oldu". İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək.

Göründüyü kimi, Azərbaycan iqtisadi qüdrəti ilə seçildiyi kimi, innovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənir. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

## Azərbaycan daha bir beynəlxalq mükafata layiq görülüb

Noyabrın 28-də Moskvada "National Geographic Traveler" jurnalı tərəfindən təşkil olunan "National Geographic Traveler Awards 2019" müsabiqəsində Azərbaycan İtaliya və Böyük Britaniyanı qabaqlayaraq "Ən yaxşı ekskursiya istiqaməti" nominasiyası üzrə qalib seçilib.



Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, "Nat-geo.ru" saytı vasitəsilə onlayn səsvermə əsasında aparılan müsabiqədə 450 mindən çox insan iştirak edib. Bu il iyun ayının 29-dan oktyabrın 31-dək davam edən səsvermədə ən populyar turizm növləri və ən yaxşı turizm istiqamətləri üzrə 24 nominasiya yer alıb. Sayca 9-cu dəfə keçirilən müsabiqədə 50-dən artıq ölkənin turizm məhsulları və turizm istiqamətləri səsverməyə çıxarılıb.Hər il keçirilən "National Geographic Traveler Awards" müsabiqəsi səyahətçilər üçün ən yaxşı istirahət yerlərini müəyyən edir, həmçinin yeni səyahət marşrutlarının yaranmasını stimullaşdırır.

# Arif Hacılı getməlidir, vəssalam!

## *Müsavatçıların və digər müxalifətçilərin tələbləri dəyişilməz qalır*

***Miqrant alveri ilə bağlı Müsavat partiyasında yaranmış böhranlı vəziyyət gərginləşməkdə davam edir. Hətta vəziyyət o həddə qədər gəlib-çatıb ki, istər müsavatçılar, istərsə də müxalifət düşərgəsinin digər nümayəndələri, eləcə də, sabiq partiya üzvləri A.Hacılının istefasını tələb edirlər. Düzdür, A.Hacılı vəziyyətdən çıxmaq üçün bəyan edib ki, sözügedən məsələ ilə əlaqədar mətbuat konfransı keçirəcək və s. Amma bu, heç nəyi dəyişmir. Tələblər birdir - A.Hacılı başqanlıqdan getməlidir, vəssalam!***



Onu da qeyd edək ki, istefa tələb edənlər sırasında müsavatçı Ramis Yunus, jurnalist Xədicə İsmayıl, eləcə də, digər müxalifət təmsilçiləri var.

Daha vacib məsələ A.Hacılı ilə sonuncu qurultaydan sonra demək olar ki, düşmən kəsilmiş Yadigar Sadıqlının iddialarıdır.

### Yadigar Sadıqlı: "Bu gün Müsavat partiyası ətrafında baş verənlərlə bağlı İsa Qəmbərin məsuliyyəti Arif Hacılıdan az deyil"

Y.Sadıqlı bildirib ki, Müsavat partiyasına vurulan bu zərbədən sonra partiyanin nüfuzunun aşağı düşməsini aradan qaldırmaq mümkün olmayacaq. "Müsavatın cəmiyyətdə qüsursuz imicinin düzəldilməsinin yeganə yolu A.Hacılının başqanlıqdan getməsidir" deyən Sadıqlı məsələnin belə bir hal almasında sabiq başqan İ.Qəmbərin də az rolunun olmadığını iddia edib. Daha dəqiq desək, "İsa Qəmbər hər zaman var gücü ilə A.Hacılını müdafiə edib, Müsavat partiyasının günü-gündən nüfuzdan düşməsini görməzdən gəlib, fakt və gerçəkləri təhrif edərək danışıb" deyə bildirən müsavatçı funksioner, əlavə edib ki, ümumiyyətlə, A.Hacılıya rəqib olan insanlara haqsızlıq edərək danışıb: "Bu gün Müsavat partiyası ətrafında baş verənlərlə bağlı İ.Qəmbərin məsuliyyəti A.Hacılınınkından az deyil".

Onun sözlərinə görə, İ.Qəmbər özü şəxsən divanda olan müzakirələrdə iştirak etməsə də, bundan xəbərdar olub: "Sonda da qurultaydan qabaq A.Hacılını dəstəkləyib. Avropaya yolu düşəndə də Müsavat "AKM"-in rəhbərləri ilə şirin fotolar çəkdirərək, sosial şəbəklərdə paylaşıb".

### Tural Abbaslı: "İlk növbədə, Arif Hacılıdan onun partiyadaşları istefa tələb etməlidir"

Digər maraqlı məqam partiyanın daha öncəki qurultayında başqanlığa namizəd olmuş və İ.Qəmbərin müdaxilələri və saxtakarlığı nəticəsində oradan istefa vermiş, hazırda isə "Ağ Paritya"nın sədri olan Tural Abbaslının ittihamıdır. Onun sözlərinə görə, hansısa dövlətin rəsmi partiyasının adının insan alverində, çirkli pulların yuyulmasında və casus məsələlərində hallanması böyük rüsvayçılıqdır. "Bu zaman artıq, ilk növbədə, A.Hacılıdan onun partiyadaşları istefa tələb etməlidir və belə olacağı təqdirdə, cəmiyyət nümayəndələri də bu tələbi edə bilərlər. Digər hüquqi məsələləri isə aidiyyəti orqanlar həll etməli olacaq" deyə partiya sədri məsələnin cinayət işinə doğru getməsini də istisna etməyib.

### Növbə AXCP sədri Əli Kərimlinindir?

Beləliklə, Müsavat partiyasının gözlənilən qürubu gəlib-çatıb və onu da, xatırlatmaq yerinə düşərdi ki, miqrant alveri ilə, yalnız Müsavat partiyası deyil, eyni zamanda, AXCP də məşğul olur. Xüsusilə, Əli Kərimlinin əlaltıları bu məsələdə böyük canfəşanlıq sərgiləyirlər. Daha dəqiq desək, hazırkı dövrə qədər onlarla şəxsə saxta sənədlər, vəsiqələr verilərək, onların "axecepeçi" olduqları, guya hakimiyyət tərəfindən "təqiblərə" və "təzyiqlərə" məruz qalmaları ilə bağlı qondarma arayışlar verilib. Yəqin ki, yaxın vaxtlarda bu məsələ də gündəmə gələcək və bu dəfə Ə.Kərimlinin birmənalı istefası tələb olunacaq. Hər halda, belə faktlar kifayət qədərdir və sadəcə, geci-tezi var. Zaman isə sürətlə axır...

***Rövşən RƏSULOV***



# Uğursuz müxalifətin fantaziyaları...

**RƏFİQƏ**

***Oturub bir anlığa müxalifət düşərgəsinin keçdiyi uğursuz və biabırçı siyasi yola nəzər yetirdikdə, öz-özümə fikirləşirəm, bax, budur həyasızlığın son həddi. Üzü padoş buna deyirlər. Düzünü də deyəndə, deyirlər ki, iqtidar qəzetləri təhqir edir. Qınamayın məni, təhqir etmirəm. Sözümün canı var. Belə ki, bəlli olan reallıq budur ki, bu, o Azərbaycan müxalifətidir ki, yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Ona rəqib, alternativ ola bilməyib.***

Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı, rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də dəyişməyib, bu gün də, sabah da dəyişməyəcək. Və dağıdıcı müxalifətin eyniadlı estafeti bu gün də davam etməkdədir. Özü də ünvansız bir yol boyunca. Bu gün bu başıpozuq satqın dağıdıcı düşərgə "liderləri" çətinə düşəndə də, başlayırlar hansısa əndrəbadi bir qurum yaratmağa və başlayırlar həmin ölü qurumda baş girləməyə. Bunu görə-görə gəlmişik: "SİDSUH"-dan tutmuş, ta üzü bəriyə qədər, məsələn, "Milli Şura"ya qədər...

Bəli, artıq bir şey qalmayıb. Odur ki, adı ciddi olmayan qurumların fəaliyyətindən də ciddi nəsə gözləməyə dəyməz. Ayrıca düşünmək olar ki, adlarındakı hərf sayı üzvlərinin sayından daha çox olan partiyalar daha yaxşı olar ki, yarı yoldan qayıdıb abırlarına, varsa, sıxılsınlar abırlarına. Sıxıla da bilməzlər. Çünki AXCP və Müsavat özlərini "cırtdan" partiyaların böyük və ağır "abiləri" hesab edirlər. Prosesə bu qədər tez qoşulmağı da olmayan reputasiyalarına sığışdırmırlar, vəssalam. Səbəb yalnız budur!

Qarşıda hələ Ə.Kərimlinin C.Həsənli başda olmaqla "Milli Şura"ilə uzun müddətdən bəri çəkilməmiş qalan haqq-hesab var...

Beləlkilə, deyə bilərik ki, məğlubiyyət müxalifətimizin alın yazısıdır. Onların qabiliyyətinə, istəyinə, səmimiyyətinə, gücünə tam adekvat olan bir yekundur. Adamların 26 illik məğlubiyyət immuniteti var. Artıq onlarda arsızlıq mərhələsinə də keçid var.

Məsələn, Müsavatın sabiq başqanı İsa Qəmbərin dərdi itirmiş olduğu başqanlıq statusunu kompensasiya etməkdir. Ona görə qarşıdakı qurultaya qədər hansısa qurumu, təsisatı yaradıb, öz "qüdrətini" göstərməyə və qarşı tərəfə "mən də varam" mesajını verir.

Ə.Kərimli isə "Milli Şura"nı əlində alət edib cibini güdməklə, pulunu qazanmaqla məşğuldur. Yəni bunların yönümləri tam fərqli olsa da bənzərlikləri də mövcuddur. Daha bir fakt isə budur ki, hər ikisi bir-birinə uzun illərdən bəri patoloji nifrət bəsləyir. Ona görə də məqsəd və amal hər nə olursa-olsun, məqamı gələndə, fürsət düşəndə, öz zəhərlərini tökəcəklər, nifrətlərini büruzə verəcəklər. Ancaq 25 illik məğlubiyyət immuniteti olan bu bədbəxtlər istəklərinə çata biləcəklərmi? Bax, bunu zaman göstərəcək.

# Ambisiyaları çox, ağılları yox

## *Xədicə İsmayıl, Əli Kərimli və Cəmil Həsənlinin "siyasi məhbus" mövzusu "nəfəslik" alətidir*



***Bu həmiş belə olub - dağıdıcı müxalifət düşərgəsi nə zaman mövzu sarıdan qıtlıq yaşayırsa, saman çöpündən yapışan kimi, dərhal "siyasi məhbus" məsələsinə üz tutur. Daha doğrusu, "siyasi məhbus" mövzusu onların gündəlik həyatında nəfəslik rolunu oynamağa başlayıb. Elə buna görədir ki, yenə də dağıdıcı düşərgədə son günlər siyasi mühacir"lə bağlı Almaniyada həbsindən sonra indi yenidən "siyasi məhbuslar" adı ilə mitinq iddiasına düşüblər.***

Necə deyərlər, 26 ildən çoxdur ki, dəyişməyən erməni üfunətli düşərgə sakinləri elə köhnə təfəkkürlə çətinə düşən kimi başlayırlar "siyasi məhbus" məsələsi ətrafında didişməyə. Necə deyərlər, "dartma yaxam cırıldı" deyən "siyasi məhbus" "ideyası" üzərində baş sındıranlar bir-birlərini qurşaqdan aşağı, "nə yemisən, türşulu aş" deyib abırdan salmaqdan belə çəkinmirlər. Və baş verən bu qovğalara diqqət yetirsək, görərik ki, "siyasi məhbus" alverçilərini onların hüquqlarını müdafiə etmək istəyindən getmir və zərrə qədər də maraqlandırmır. Bu qovğada yenə də Qərbdəki donor təşkilatlarından külli miqdarda qrant almaq və varlanmaq ehtirası açıq-aydın göstərir.

### "Siyasi məhbus" alverçilərinin qoç döyüşü

Xədicə İsmayıl- Leyla Yunus və Elşən Həsənov tərəfindən hazırlandığı iddia olunan yeni "siyasi məhbus" siyahısı: 94-166 nəfər. AXCP və "Milli Şura" L.Yunusun siyahısına açıq dəstək verərək, Xədicə İsmayılın dəstəsinə yenidən arxa çevirdi. Dünənə kimi, sevgili olan, "getmə gözümdən, gedərəm özümdən" deyən AXCP sədri Ə.Kərimli və "Milli Şura"nın kağız üzərində sədri C.Həsənliyə "davay-dosvidaniya" veriləcəyi məqamda özünü gözə soxmaq üçün Xədicəgilin ünvanına demədiyi təhqirlər qalmadı, dedi.

Əqidəsiz, mənəviyyatsız, vətəni, dövləti satan bu "siyasi məhbus" alverçilərindən bunu gözləmək təəccüb də doğurmur. Pul iyi gələndə, radikal müxalifət düşərgəsinin ştatlı üzvlərinin iştahı daha da artır. Elə son günlər olduğu kimi. Bu satqınların düşmənçiliyi hələ çox davam edəcək. Ancaq qranta görə Vətənini, dövlətini satanlar cəzalarını çəkməklə yanaşı, onların yeri cəhənnəmdir.

Bu yerdə dahilərin satqınlarla bağlı dediklərini xatırlatmaq istərdim. Belə ki, Ömər Xəyyama görə, ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar''. Dante ''İlahi komediya'' əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirib. Cəhənnəmin lap mərkəzində duran İuda - onların simvoludur. Necə ola bilər ki, ata-ananın, əcdadlarının yaşadığı, ən gözəl xatirələrinin ünvanı olan, ana adlandırdığın vətənə xəyanət edəsən? Psixologiya elminə görə, xəyanət - elmi baxımdan, daha geniş olan satqınlıq anlayışına daxildir. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir.

Ancaq mən belə düşünürəm ki, satqınlığın qaynaqları - uşaqlıq dövründə, ailədə gizlənir. Normal ailədə - satqının böyüməsi mümkün deyil. Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, X.İsmayıl, L.Yunus... kimilərin satqınlığı bunu deməyə əsas verir ki, bu kəslər normal ailədə böyüməyiblər.

***Rəfiqə HÜSEYNOVA***

## Qaradağda üçotaqlı ev yanıb



Qaradağ rayonunda güclü yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, hadisə nəticəsində ümumi sahəsi 150 kvadratmetr olan birmərtəbəli üçotaqlı ev əşyaları ilə birlikdə yanıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

# AQHM-in "İnkişaf Haqları və QHT-lərin İnkişaf Rusurs Mərkəzi" rayon şöbələrində fəaliyyəti

***Böyük Britaniya səfirliyinin xəttilə qadınlara qarşı zorakılıqla bağlı bir günlük konfrans. Konfransın məqsədi - qadınlara qarşı bütün sahələrdə zorakılığı əks etdirən bülletenin çapı. Qazax rayonunda "İnsan Haqları və QHT-lərin İnkişaf Resurs Mərkəzi"nin açılışı. Bu mərkəzin məqsədi bölgədə insan haqlarının qorunması və həmin regionda QHT hərəkatının inkişafına dəstək olmaqdır. Mərkəz bu məqsədlə texniki avadınlıqla təmin edilmiş və ev icarəyə götürülmüşdür. Qazax rayonunda "Yerli hakimiyyət və ictimaiyyət - partnyor, yoxsa opponent" mövzusunda Vətəndaş Forumu. Forumun məqsədi yerli hakimiyyətlə ictimaiyyətin dialoqa girməsi, problemlərin səbəblərini birgə araşdıraraq, onun həlli yollarını artırmaq idi. Forumda ictimaiyyətin 32 müxtəlif təbəqəsinin nümayəndələri - QHT, yerli hakimiyyət, ziyalılar, KİV və s. iştirak edirdi.***

Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyətinin Avrasiya Əməkdaşlıq Fondunun maliyyə dəstəyi ilə reallaşdırdığı "Bələdiyyələrdə gender bərabərliyinin monitorinqi və ictimai vəkillik" adlı layihəsi də bu mövzuya həsr olunmuşdu. 6 ay müddətində ölkənin 5 rayonunda - Zaqatala, Balakən, Xaçmaz, Masallı və Astara rayonlarında bununla bağlı tədbirlər təşkil olundu.

Məlumat üçün bildirək ki, layihənin məqsədi, bələdiyyələrdə qadınların rəhbər vəzifələrdə sayının az olması səbəbini öyrənmək və gender bərabərliyinin təhlilinə imkan verən monitorinq və onun nəticələri əsasında qadın haqlarının inkişafı ilə bağlı ictimai vəkillik kampaniyasını apararaq, qadın haqlarının inkişafı sahəsində ictimai nəzarətin gücləndirilməsini həyata keçirmək və qərar qəbuletmədə onların hüquq və rollarının artırılmasna yardım etmək idi.

Layihə icrası zamanı aşağıdakı vəzifələr həyata keçirildi.

a) Bələdiyyələrdə qadınların sayının az olması səbəbini öyrənmək üçün gender bərabərliyinin anketlər vasitəsi ilə monitorinqi aparıldı və ona uyğun təklif və tövsiyələr hazırlandı;

b) İctimai vəkillik kampaniyasının aparılması ilə bağlı hazırlanan təkliflər paketi aidiyyəti qurumlara - Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, rayon icra hakimiyyətləri, rayon və kənd yerli özünüidarə qurumlarına çatdırıldı;

c) Monitorinq aparılan rayon və kəndlərdə monitorinqin nəticələrinə əsaslanaraq, marifləndirici və məlumatlandırıcı tədbirlər həyata keçirildi və qadın haqlarının inkişafı üçün ictimai nəzarəti həyata keçirən qadın nəzarət qrupları yaradıldı. (layihənin bütün mərhələləri region KİV-də işıqlandırılır);

d) Qadınlara qərar qəbuletmədə hüquq və rollarının artırılması məqsədi ilə (müvəqqəti dövr üçün) KVOTA verilməsinun ictimailəşdirilməsi.

D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyəti növbəti tədbirlərini iyulun sonlarında Masallı və Astara rayonlarında keçirdi. Hər iki rayonda keçirilən tədbirdə çıxış edən cəmiyyətin sədri, tanınmış hüquq müdafiəçisi Novella xanım Cəfərova bələdiyyələrin cəmiyyətin həyatında əhəmiyyətindən, qadınların bu qurumunda fəallığından söz açdı. Novella xanım öz çıxışlarında istər ölkəmizdə, istər dünya praktikasında, xüsusən, İsraildə və Türkiyədə bələdiyyə sahəsində qazanılmış təcrübələrdən olduqca maraqlı nümunələr gətirdi. Onun çıxışlarından bəlli oldu ki, inkişaf etmiş ölkələrdə bələdiyyələrin öz xəstəxanası, məktəbi, idman obyektləri və sair imkanları var. Həmçinin. bildirdi ki, bələdiyyələr yerli imkanlardan lazımınca faydalanmırlar. Belə ki, yol boyu pomidor, xiyar, badımcan və sair məhsulların hədsiz bolluğu hiss olunur, lakin bu məhsulların paytaxtda və sair yerlərdə normal satışı təşkil olunmur ki, insanlar böyük zəhmətlə yetişdirdikləri məhsulları normal qiymətlərə sata bilsinlər. Tədbir zamanı çıxışlarda bəlli oldu ki, bələdiyyə qurumlarında, nəinki qadınların sayı artır, eləcə də, fəal- təşkilatçı, işgüzar, təşəbbüskar qadınların sırası nəzərəçarpacaq dərəcədə genişlənir.

İstər Masallıda, istər Astarada bələdiyyə sədrləri, eləcə də, bələdiyyə üzvü olan qadınlar olduqca maraqlı təkliflərlə çıxış etdilər. Həmin təklifləri səsləndirmədən öncə, bildirək ki, tədbir iştirakçıları bəzi qadınların bələdiyyə qurumlarına formal şəkildə seçildiyindən gileyləndi. Onlar bildirdi ki, bir sıra yerlərdə qadınlar bu quruma formal şəkildə seçildiyindən, açıq desək, təyin olunduqdan sonra tədbirlərə gəlmir, bələdiyyənin fəaliyyətinə heç bir kömək etmir, sadəcə, bu yeri mənasız tərzdə məşğul edirlər. Lakin bununla yanaşı, fəal və təşəbbüskar qadınların da bələdiyyələrdə çox olduğu vurğulandı. Ərkivan bələdiyyəsinin üzvü Mənijə Yəhyayeva çıxışında bildirdi ki, qadınlar çox olan bələdiyyələrdə fəallıq da, saflıq da və işgüzarlıq da çox olur. Onlar azyaşlıların nikahı, boşanmalar və digər neqativ hallara qarşı daha ciddi mübarizə aparır, tənha, eləcə də, əlil qadınlar arasında daha güclü əlaqələr yaradıb, iş birliyi təşkil edirlər.

Həsənli bələdiyyəsinin üzvü Nazilə Hüseynova çıxışında bildirdi ki, sahibkar qadınların az deyil. Onların təcrübəsi lazımınca təbliğ olunmur. Nazilə xanım bu sahədə öz təcrübəsində-vaxtilə tütünçülük və tərəvəzçilik sahəsində əldə etdiyi uğurlardan danışdı. O, həmçinin, qeyd etdi ki, qanundakı bəzi boşluqlar, eləcə də, təsərrüfat sahəsindəki güzəştlərdə yubanmalar ciddi problemlər yaradır. Nümunə kimi qeyd etdi ki, ötən ildən bəri taxıl əkilsə də, biçilsə də, yeni mövsüm üçün şum vurulsa da, hələ də taxıl əkin-biçininə görə veriləsi subsidiyalar gəlib çıxmır.

Təklə bələdiyyəsinin sədri İrfan Bədəlov yerli çətinliklərdən- əhalinin hələ də bələdiyyənin nə olduğunu bilməməsindən, bu sahədə maarifləndirmənin aşağı səviyyədə təşkilindən, məhsul üçün normal satışın olmamasından və əkin sahələrini subasmalardan xilas etmək üçün səmərəli tədbirlərin qeyri-qənaətbəxş təşkilindən söz açdı.

Qızılağac bələdiyyəsinin sədri Şamil Məmmədov isə bələdiyyənin imkanlarından maksimum səmərəli istifadə etdiklərini, onlarla adamı işlə təmin etdiklərini, yerli təşəbbüslərə geniş yer verdiklərini nümunə kimi göstərdi.

Astara şəhərində keçirilən tədbirdə isə Ərçivan qəsəbə bələdiyyəsinin sədri İradə xanım öz çıxışı ilə çoxlarının marağına səbəb oldu. O, uğurlu işlərindən danışmaqla yanaşı, bələdiyyələrin problemlərini, qayğıların çox dəqiqliklə incələdi və onları aradan qaldırmaq üçün konkret yollar təklif etdi. İradə xanım bildirdi ki, nə qədər gözəl ideyalarımız, planlarımız olsa da, son anda hər şey gəlib pula dayanır. Əksər bələdiyyələr vəsait çatışmazlığından əziyyət çəkir. Torpaq vergilərini yığmaq mümkünsüz olub. Biz bütün seçicilərimizi məhkəməyə verə bilmərik. Bunun üçün heç texniki imkan da yoxdur. Çünki hər borclu məhkəməyə ayrıayrılıqda verilməlidir. Məhkəmə xərcləri və itirilən vaxtın dəyəri həmin vergidən çox olur. Təklif edirəm ki, torpaq vergisi verməyənə subsidiya verilməsin, belələri maşınını texniki baxışdan keçirəndə, ölkədən çıxanda, arayış alanda, onlar üçün məhdudiyyət qoyulsun.

Astaranın Kişəbə bələdiyyəsinin sədri Ağadadaş Qənbərov bildirdi ki, o, bütün həyatını bələdiyyəyə həsr edib. Yerli və xarici donorların imkanlarından istifadə edərək, rəhbərlik etdiyi ərazidə onlarla sosial problemi həll edib və etməkdədir. Nəinki qadın bələdiyyə üzvlərindən, eləcə də, ərazidəki bütün fəal qadınların imkanlarından faydalanırıq.

Layihənin koordinantı Nabat xanım Qəniyeva çıxışında, xüsusi ilə vurğuladı ki, qadın kadrlar cəsarətlə irəli çəkilməli, onlara ciddi işlər etibar olunmalı, belə qadınların təcrübəsi geniş şəkildə yayılmalıdır. Bundan əlavə, bələdiyyələr icmalar yaratmaqda, layihələr hazırlamaqda daha fəal olmalıdırlar. Yerli imkanları dəyərləndirib, buna uyğun xarici donor təşkilatlara layihələr təqdim etməli, bütün mövcud resurslardan layiqincə faydalanmalıdır. Bu yerlərdə əl işləri ilə, xalçaçılıqla və sair sahələrlə məşğul olan qadınlar var, onların imkanlarını daha səmərəli məcraya yönəltmək olduqca faydalı olardı.

Nabat xanım, həmçinin, vəd etdi ki, belə layihələrin azırlanmasında yerlərdə bələdiyyələrə yardımçı olacaqlar. Hər iki tədbirdə çıxış edən onlarla qadın belə tədbirlərin təşkilinə görə öz minnətdarlıqlarını və təşəkkürlərini bildirdilər. Tədbirdə verilən təkliflərə münasibət bildirən tədbirin rəhbəri Novella xanım təklif etdi ki, hər bələdiyyədə qadınlar üçün ayrıca otaq təşkil edilsin. Bu qadın otaqlarına təcrübəli qadınları cəlb olunsun. Burada qadınların, xüsusən, gənc qızların problemləri öyrənilsin, ümumləşdirilsin və lazımı təşkilatlara çatdırılsın. Qadınlar sosial şəbəkələrin imkanlarılndan istifadə edib problemlərini və təşəbbüslərini daha çox ictimailəşdirsinlər. Novella xanım, həmçinin, təklif etdi ki, bələdiyyələrin bir neçəsi birləşib birlik yaratsınlar, ortaya güc qoyub, daha böyük layihələrin reallaşmasına nail olsunlar.Layihənin təşkilatçılarından biri Dilarə Əfəndiyeva isə, qadınları daha çox təşəbbüskar olmağa, bu sahədə beynəlxalq təcrübədən istifadə etməyə çağırdı.Tədbir zamanı monitorinqin nəticələrinin təhlilinə aid sənəd haqda məlumat verildi. Sorğu anketində qoyulan sualların nəticələri iştirakçıların nəzərinə çatdırıldı. Sənəddən 1 nüsxə rayon icra hakimiyyətinə göndərildi. Tədbir iştirakçılarına bu sahədə qanunçuluğa aid sənədlər paylandı.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 30 noyabr

## Regionlarda 4G “Nar” şəbəkəsindən istifadə edənlərin sayı iki dəfə artıb

Ölkənin ən gənc mobil operatoru “Nar” müştərilərini yüksək sürətli və keyfiyyətli internetlə təmin etmək məqsədilə baza stansiyalarının sayını artırmaqda davam edir. Belə ki, şəbəkəni əhali üçün daha əlçatan etmək məqsədilə il ərzində 1050-dən çox 4G, 210-dan artıq isə 3G baza stansiyası qurulub. Bununla da hazırda “Nar”ın LTE və LTE-A texnologiyalı baza stansiyalarının sayı 2750-ni, 3G baza stansiyalarının sayı isə 2815-i ötüb. 4G və 3G baza stansiyalarının sayını sürətlə artırmaqla mobil operator Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin edir. Aparılan davamlı şəbəkə təkmilləşdirmə işlərinin nəticəsi olaraq, Bakı və Abşeron yarımadasından başqa, 54 region “Nar”ın sürətli 4G şəbəkəsi ilə əhatə olunub.




Bütün ölkə ərazisində quraşdırılan yeni LTE texnologiyalı baza stansiyaları regionlarda 4G internet istifadeçilərinin sayının artmasına da səbəb olub. Belə ki, son 1 il ərzində 4G internetindən istifadə edənlərin sayı Bakı üzrə 78 faiz, regionlar üzrə isə 100 faizdən çox artıb. Hazırda “Nar”ın yüksəkkeyfiyyətli 4G xidmətindən yararlanan aktiv abunəçilərin sayı 900 mini ötüb.

“Nar” ötən ilin müvafiq dövrü ilə müqayisədə 4G şəbəkəsinin coğrafi əhatə dairəsini 347 faiz, ölkə əhalisinin əhatə dairəsini isə 120 faiz artırmağa nail olub. Bununla da hazırda mobil operatorun 4G şəbəkəsi ölkə ərazisinin 74,3 faizini (işğal olunmuş ərazilər istisna olmaqla), ölkə əhalisinin isə 92 faizini əhatə edir. “Nar” hazırda 8600-dən çox baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 2007-ci il martın 21-də fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib. 2017-ci ildə “Nar” zəng xidmətlərinin keyfiyyətinin yüksəldərək “HD-Voice” xidmətini tətbiq edib və həmin ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

### ELAN

***“Təmir-Tikinti AzNY” Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə***

**11 yanvar 2020-ci il tarixdə, saat 11.00-da “Təmir-Tikinti AzNY” QSC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.**

**Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:**

**“Təmir-Tikinti AzNY” QSC-nin “ayrılma” yolu ilə yenidən təşkil edilməsi;**
**-Yeni hüquqi şəxsin - Qapalı Səhmdar Cəmiyyətinin yaradılması. Səhmdara məxsus səhmlərin dəyərinə uyğun əmlak payının naturada ayrılmaqla yeni yaradılmış QSC-yə keçməsi;**
**“Təmir-Tikinti AzNY” QSC-nin nizamnamə kapitalının azaldılması, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi;**
**Digər məsələlər.**

**ADPU-nun İbtidai sinif müəllimliyi ixtisası üzrə İBT 1901 TT qrup tələbəsi Heydərzadə Türkan İnqilab qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun İbtidai sinif müəllimliyi ixtisası üzrə İBT 1901 TT qrup tələbəsi İbrahimova Nərmin Məhəmmədəli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Bakı “Avro 2020”nin A qrupunun oyunlarına Roma ilə birlikdə ev sahibliyi edəcək




Bakı futbol üzrə “Avro 2020”nin final mərhələsi çərçivəsində A qrupunun oyunlarına İtaliyanın paytaxtı Roma ilə birlikdə ev sahibliyi edəcək. Azərbaycan milli komandası turnirin final mərhələsinə vəsiqə qazanmadığı üçün İtaliya millisi hər üç oyunu öz meydanında keçirəcək.

AZƏRTAC xəbər verir ki, bundan əlavə, Millətlər Liqasının dörd pley-off qalibi A qrupuna düşə bilməz. Bu səbəbdən dördüncü səbətdən Finlandiya və ya Uels millisi paytaxtımızda qonaq olacaq. Birinci səbətdən heç bir milli komanda A qrupunda yer ala bilməyəcək. Çünki artıq İtaliya millisi birinci səbətdən A qrupunda yerini təmin edib. Eyni zamanda, ikinci səbətdən Rusiya və Danimarka, üçüncü səbətdən isə Niderland ev sahibi ölkələr olduqları üçün onların yer aldıqları qruplar artıq bəllidir.

Xatırladaq ki, 2020-ci ildə Avropa çempionatının 4 oyunu Bakı Olimpiya Stadionunda təşkil olunacaq. İyunun 13-də, 17-də və 21-də A qrupunun üç qarşılaşması, iyulun 4-də isə dörddəbir final mərhələsinin bir görüşü Bakı Olimpiya Stadionunda keçiriləcək.

## Esme Braun: Milli Gimnastika Arenasında yaradılmış şəraitə heyranam



Milli Gimnastika Arenasında yaradılmış şəraitə heyranam. Azərbaycan Gimnastika Federasiyasının məlumatında deyilir ki, bu sözləri ölkəmizdə təlim-məşq toplanışında olan Puerto-Riko milli komandasının məşqçisi Esme Braun deyib.

Onun sözlərinə görə, Milli Gimnastika Arenasında məşq üçün möhtəşəm meydança var: “Arena inanılmaz dərəcədə gözəldir, iş prosesinin təşkili yüksək səviyyədədir. Hamı peşəkarlıqlar işləyir, müxtəlif qruplar məşq edə bilir”. Qeyd edək ki, Puerto-Riko millisinin Milli Gimnastika Arenasında keçirilən təlim-məşq toplanışında 4 idmançı iştirak edir.

## Unay Emeri “Arsenal”dan qovuldu



İngiltərənin “Arsenal” futbol klubunun rəhbərliyi baş məşqçi Unay Emerini istefaya göndərib. 48 yaşlı ispaniyalı mütəxəssisin istefaya göndərilmə səbəbi komandanın son oyunlarda uğursuz çıxışı olub. U.Emeri öz məşqçi heyəti ilə birgə “Arsenal”ı tərk edib. Baş məşqçi vəzifəsini müvəqqəti olaraq Fredrik Yunqberq icra edəcək. London təmsilçisi cari mövsümdə keçirdiyi son 7 matçın heç birində qələbə qazana bilməyib. Bu, klubun son 27 ildə ən pis göstəricisidir. Xatırladaq ki, U.Emeri “Arsenal”a 2018-ci ilin yazından rəhbərlik edirdi.

## “Qarabağ” Avropa Liqasının play-off mərhələsinə çıxmaq şansını itirib



UEFA Avropa Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin beşinci turu çərçivəsində keçirilən “Sevilya” - “Qarabağ” oyunu başa çatıb. AZƏRTAC xəbər verir ki, Sevilya şəhərindəki “Xuan Sanças Pisxuan” stadionunda keçirilən görüşdə Ağdam təmsilçisi 2:0 hesabı ilə məğlub olub.

Beləliklə, “Qarabağ” bu məğlubiyyətdən sonra play-off mərhələsinə çıxma şansını itirib. A qrupunda “Qarabağ” ilə 4 xalla ikinci və üçüncü yerləri bölüşən Kiprin APOEL komandası səfərdə Lüksemburqun “Düdelnaj” klubuna 2:0 hesabı ilə qalib gəlib. Qrup mərhələsinin son turunda “Qarabağ” öz meydanında “Düdelanj” ilə, “Sevilya” isə səfərdə APOEL komandası ilə qarşılaşacaq. Altıncı turda “Qarabağ” qalib gələrsə, APOEL məğlub olsa, 7 xal toplamalarına baxmayaraq şəxsi oyunlardakı üstünlüyə görə (2:1, 2:2) nikosiyalılar qrup mərhələsini 2-ci pillədə başa vuracaq. Növbəti turun oyunları dekabrın 11-də keçiriləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**